# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Səfər Azərbaycanın dinlərarası dialoqa sadiqliyini göstərdi"



4

SƏS

№ 193 (7361)

22 oktyabr 2025-ci il.
Qiyməti 60 qəpik

## Azərbaycan - Qazaxıstan: strateji tərəfdaşlığın yeni hədəfləri



2

**Prezident İlham Əliyev: "Bu gün ölkələrimiz arasında aktiv qarşılıqlı fəaliyyət həm də çox mühüm geosiyasi əhəmiyyətə malikdir"**

# Türk dünyasında akademik inteqrasiya



6

## Ömrü dastana dönmüş Şəhidimiz



5

## Yüksək etimada və xeyirxahlığa qarşı naqislik edənlər



12

## Məişət zorakılığı: adi məişət hadisəsi, yoxsa insanlığın ...



9

## Mirzoyan kimin sözünü danışır - Paşinyanın, yoxsa...?



8

## 1 milyard adam niyə acdır? Ərzaq çatmır, yoxsa...?



6

# Azərbaycan - Qazaxıstan: strateji tərəfdaşlığın yeni hədəfləri

## Prezident İlham Əliyev: "Bu gün ölkələrimiz arasında aktiv qarşılıqlı fəaliyyət həm də çox mühüm geosiyasi əhəmiyyətə malikdir"

Beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə nail olan Azərbaycan Mərkəzi və Orta Asiya ölkələri ilə də sıx siyasi və iqtisadi əlaqələrə malikdir. Xalqlarımızın dil, din, mədəniyyət, mənəvi dəyərlər baxımından yaxınlığı, eyni zamanda ortaq tarixə malik olması bu əlaqələrə təsir göstərən mühüm amillərdən biridir. Son illərdə Prezident İlham Əliyevin Mərkəzi Asiya dövlətlərinə, eləcə də bu ölkələrin dövlət başçılarının Azərbaycana səfərləri intensiv xarakter alıb. Bu qarşılıqlı səfərlər nəticəsində ikitərəfli və çoxtərəfli formatlarda mühüm sənədlər imzalanıb, yeni əməkdaşlıq istiqamətləri müəyyən edilib. Azərbaycanın sıx və tarixi əlaqələrə malik olduğu türk dövlətlərindən biri Qazaxıstandır. Ölkəmizin Mərkəzi və Orta Asiyanın türkdilli dövlətləri arasındakı münasibətləri yüksələn xətlə inkişaf etməsinə Azərbaycanın Qazaxıstanla olan əlaqələri də öz töhfəsini verir. Azərbaycan və Qazaxıstan çoxəsrlik dostluq ənənələrini nəinki qoruyub saxlamağa, genişləndirməyə, Azərbaycan-Qazaxıstan münasibətlərini strateji tərəfdaşlıq səviyyəsində inkişaf etdirməyə nail olub.

Bu gün xarici siyasətdə iştirak etdiyimiz aparıcı beynəlxalq təşkilatlarda Qazaxıstan və Azərbaycan nümayəndələri fəal əməkdaşlıq edir və hər zaman bir-birini dəstəkləyir. Məlumdur ki, Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstanın ali mükafatı, "Altın kıran" - "Qızıl qartal" ali ordenlərlə təltif edilməsi xalqlarımızın dostluğunun və qardaşlığının təsdiqi, Prezident İlham Əliyevin Azərbaycan-Qazaxıstan münasibətlərinin möhkəmlənməsi üçün gördüyü işlərə verilən yüksək qiymət idi.

Qardaş dövlətlər olan Azərbaycan və Qazaxıstanın bütün məsələlər üzrə eyni mövqeyi nümayiş etdirməsi Bakı ilə Astanın strateji tərəfdaşlar, müttəfiqlər olduğunu təsdiqləyir.







İtərəfli münasibətlərdə və beynəlxalq problemlərə dair bütün məsələlərdə ölkələrimizin mövqeləri üst-üstə düşür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 20-də Qazaxıstan Respublikasına dövlət səfəri mövcud əlaqələrin davamlılığına və daha da dərinləşməsinə dələlət edir.

Oktyabrın 21-də Astanada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü keçirilib. "Qazaxıstan və Azərbaycan təkcə dost dövlətlər deyil, həm də qardaş xalqlar və millətlərdir. Ona görə də Sizin ölkənizlə çoxşaxəli əməkdaşlığın inkişafı bizim üçün böyük prioritetdir". Bu sözləri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyev ilə təkbətək görüşündə söyləyib. "Üstəlik, Azərbaycan Sizin güclü liderliyinizlə öz mövqelərini xeyli möhkəmləndirib, beynəlxalq arenada nüfuzunu artırıb və dünyanın sizə aid hissəsində regional güc kimi çox mühüm rol oynayır", - deyə o əlavə edib.

Görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyev qardaş ölkənin həm sosial-iqtisadi inkişafda, həm də beynəlxalq mövqelərin möhkəmləndirilməsində uğurlarına sevindiyini diqqətə çəkib. "Bu gün Qazaxıstan yüksək inkişaf səviyyəsi nümayiş etdirir. Ölkədə ictimai-siyasi sabitlik təmin olunur, iqtisadiyyat güclənir. Biz Sizin həyata keçirdiyiniz islahatları maraqla müşahidə edirik və ölkənin modernləşdirilməsinə, onun potensialının möhkəmləndirilməsinə yönəlmiş kursunuzu tam dəstəkləyirik", - deyə Azərbaycan Prezidenti bildirib.

### QAZAXISTAN PREZİDENTİ:"SARSILMAZ TƏMƏL ÜZƏRİNDƏ ÇOXŞAXƏLİ ƏMƏKDAŞLIĞIMIZI UĞURLA İNKİŞAF ETDİRİRİK"

Qazaxısan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfərinin iki ölkə arasında strateji tərəfdaşlığın gələcək inkişafı üçün çox böyük əhəmiyyətini qeyd edib. Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxış edən Qazaxıstan dövlətinin başçısı deyib: "Əvvəlcə strateji tərəfdaşlığın, müttəfiqlik münasibətlərinin daha da inkişafı, nəhayət qardaş xalqlarımız və dövlətlərimiz arasında dostluğun möhkəmləndirilməsi baxımından böyük, hətta deyə bilərik ki, kritik əhəmiyyətə malik olan Qazaxıstan Respublikasına rəsmi dövlət səfərinizdə Sizi bir daha salamlamaq istərdim". Onu da bildirib ki, Azərbaycan Qazaxıstan üçün müstəsna ölkə, qardaş dövlətdir.

Qazaxıstan dövlətinin başçısı vurğulayıb: "Bizi ortaq tarixi köklər, zəngin mənəvi-mədəni irs, nəhayət uyğun mentalitet, hadisələrə, vəziyyətin inkişafına baxış birləşdirir. Bu sarsılmaz təməl üzərində çoxşaxəli əməkdaşlığımızı uğurla inkişaf etdiririk".

### "TORPAQLARIMIZIN İIŞĞAL ALTINDA OLDUĞU UZUN İLLƏR ƏRZİNDƏ QAZAXISTAN ARDICIL OLARAQ AZƏRBAYCANIN SUVERENLİYİNİ VƏ ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİB"

Qazaxıstanın regionda sülhün, təhlükəsizliyin və iqtisadi əməkdaşlığın təşviqinə yönəlmiş fəaliyyəti Azərbaycan tərəfindən yüksək qiymətləndirilir. Xüsusilə Qazaxıstanın Asiyada təhlükəsizliyin möhkəmlənməsi sahəsində irəli sürdüyü "Asiyada Qarşılıqlı Əməkdaşlıq və Etimad Tədbirləri üzrə Müşavirə" təşəbbüsünü ilk dəstəkləyən ölkələrdən biri Azərbaycan olub. Xüsusi olaraq qeyd edək ki, Qazaxıstan və Azərbaycan dövlət başçıları arasında bugünkü dostluq və qardaşlıq münasibətləri Ulu Öndər Heydər Əliyev ideyalarının ardıcıl olaraq həyata keçirilməsi üçün böyük bir stimuldur. Bu dostluq bütün zamanlarda öz təstiqini tapıb.

Prezident İlham Əliyev Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın ikinci iclasında çıxış edərkən Qazaxıstanın Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə dəyişməz dəstəyini qeyd edib: "Biz bu dəstəyi həm ikitərəfli, həm imzalanmış sənədlər, həm də Qazaxıstanın beynəlxalq təşkilatlardakı mövqeyi ilə həmişə hiss etmişik və buna görə Sizə çox minnətdarıq".

Qazaxıstan dost ölkə olaraq Qarabağın bərpasına da töhfələrini verir.

*Ardı Səh. 3*

Əvvəli Səh. 2

# Azərbaycan - Qazaxıstan: strateji tərəfdaşlığın yeni hədəfləri

## Prezident İlham Əliyev: "Bu gün ölkələrimiz arasında aktiv qarşılıqlı fəaliyyət həm də çox mühüm geosiyasi əhəmiyyətə malikdir"

Xatırladaq ki, 2022-ci ilin avqust ayında Qazaxıstan Prezidentinin Azərbaycana səfəri zamanı hədiyyə olaraq Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin tikiləcəyini bildirmişdir. Artıq Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi tikilib və istifadəyə verilib. Bu addım Azərbaycan Prezidenti və xalqı tərəfindən də yüksək qiymətləndirilir. Bu müəssisə ölkələr və xalqlar arasında dostluğun, qardaşlığın, qarşılıqlı dəstəyin daha bir simvoludur. Yaxın gələcəkdə Qazaxıstan şirkətlərinin iştirakı ilə bir sıra layihələr də həyata keçiriləcək. Bununla yanaşı, Qazaxıstan Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin tezliklə bağlanmasında maraqlı olan dövlətdir.

### ”ZƏNGƏZUR DƏHLİZİNİN AÇILMASI 2028-Cİ İLİN SONUNADƏK BAŞ VERƏ BİLƏR”

”Azəbaycan ilə Ermənistan arasında sülh dövrü başlayıb”, - deyə bildirən dövlət başçımız qeyd edib: ”Bu gün yeni mərhələ başlayır, hətta deyərdim ki, yeni dövr başlayıb - Azərbaycan ilə Ermənistan arasında sülh dövrü. Son hərbi toqquşmalardan cəmi iki il keçməmiş sülh sazişinin paraflanması hər iki ölkənin kifayət qədər yüksək səviyyədə siyasi iradə nümayiş etdirməsindən xəbər verir”.










O qeyd edib ki, ABŞ Prezidenti Donald Trampın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılmasındakı rolu ən yüksək qiymətə layiqdir.

”Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb”, - deyən Azərbaycan Prezidenti vurğulayıb: ”Onu da qeyd etməliyəm ki, Azərbaycan Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırıb və ilk belə tranzit yük Qazaxıstan taxılının Ermənistana daşınması olub. Zənnimcə, bu, həm də Azərbaycan ilə Ermənistan arasında sülhün artıq kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir”.

Azərbaycan Prezidenti çıxışında Zəngəzur dəhlizinin açılmasına nəzər salıb: ”Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonunadək baş verə bilər”, - bildirən Prezident onu da qeyyd edib ki, hazırda planlaşdırdığımız və həyata keçirdiyimiz bütün işlərlə yanaşı, Zəngəzur dəhlizi layihəsi də böyük potensiala malikdir: ”Azərbaycan ərazisində bütün avtomobil və dəmir yolu əlaqələri gələn ilin ortalarına qədər tamamlanacaq. Ümid edirik ki, digər ölkələrin ərazisində də hər şey belə sürətlə reallaşdırılacaq və belə olan halda Zəngəzur dəhlizinin açılması 2028-ci ilin sonuna qədər baş verə bilər”.

### ”BAKI VƏ ASTANANIN FƏAL QARŞILIQLI FƏALİYYƏTİ CİDDİ GEOSİYASİ ƏHƏMİYYƏT DAŞIYIR”

Ən son tarixə nəzər saldıqda, 2017-ci ilin oktyabrında istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolunun açılışında Qazaxıstan tərəfinin iştirakı, habelə qardaş ölkənin Azərbaycanın təşəbbüskarı olduğu Trans-Avrasiya Super İnformasiya Magistralı (TASIM), TANAP və TRANSXƏZƏR enerji və nəqliyyat dəhlizi layihələrinə dəstək verməsi Bakı ilə Astana arasında strateji əməkdaşlığın daha bir göstəricisidir. ”Bakı və Astananın fəal qarşılıqlı fəaliyyəti ciddi geosiyasi əhəmiyyət daşıyır”. Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ilə mətbuata bəyanatında deyib. Dövlətimizin başçısı diqqətə çatdırıb: ”Bu gün ölkələrimiz arasında aktiv qarşılıqlı fəaliyyət həm də çox mühüm geosiyasi əhəmiyyətə malikdir. Bu gün yeni nəqliyyat marşrutları açıldıqca, daha geniş Avrasiya regionunda birləşdirici layihələr həyata keçirildikcə, Qafqaz və Mərkəzi Asiya daha sıx əlaqələndikcə və tez-tez vahid coğrafi məkan çərçivəsində fəaliyyət göstərdikcə, bütün bunlar qarşılıqlı fəaliyyətin konkret nəticələr verməsini təmin etmək üçün daimi diqqət və təbii ki, dövlət başçılarının iştirakını tələb edir”.

Oktyabrın 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə ”Orta Dəhlizin inkişafı” (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) birgə layihəsinin təqdimatı olub. Çin və Orta Asiya ölkələrini Avropa dövlətləri ilə birləşdirməkdə əsas nəqliyyat-logistika marşrutu olan Orta Dəhliz regional və qitələrarası ticarətin möhkəmlənməsində strateji rol oynayır. Çindən Azərbaycana daşımaların həcmi getdikcə çoxalır və 2030-cu ilədək bunun hazırkı dövrlə müqayisədə 3 dəfə artması proqnozlaşdırılır. Bu isə öz növbəsində layihənin əhəmiyyətini daha da artırır. Dövlət başçılarına Orta Dəhlizin səmərəsini və rəqabətqabiliyyətliliyini artırmaq istiqamətində nəzərdə tutulan konkret addımlar və təşəbbüslər barədə məlumat verilib.

Azərbaycan-Qazaxıstan əməkdaşlığında iqtisadi-ticari münasibətlər strateji önəm daşıyır. Hər iki ölkə iqtisadiyyatın müxtəlif sahələrində ardıcıl birgə təşəbbüslər həyata keçirir və əməkdaşlığı davamlı olaraq genişləndirir. Bu günə qədər Azərbaycanda Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. Qarşılıqlı ticarətdə də aydın və davamlı artım müşahidə olunur. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsi 470 milyon dollar təşkil edib, 2025-ci ilin yanvar-avqust aylarında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfə artaraq 547 milyon dollara çatıb. Bu yüksəliş Orta Dəhlizin potensialından səmərəli istifadə və nəqliyyat-logistika infrastrukturunun sistemli modernləşdirilməsi ilə bağlıdır.

İnvestisiya əməkdaşlığı da getdikcə möhkəmlənir. Azərbaycanın Qazaxıstan iqtisadiyyatına investisiyası 225 milyon dollar, Qazaxıstanın Azərbaycana sərmayəsi isə 136 milyon dollar təşkil edir. Bu göstəricilər ölkələrimizin uzunmüddətli tərəfdaşlığa, qarşılıqlı etimada və davamlı iqtisadi inkişafın təmin edilməsinə verdiyi önəmi açıq şəkildə nümayiş etdirir.

Son zamanlar Azərbaycanla Qazaxıstan arasında iqtisadi-ticari münasibətlər yüksələn xəttlə genişlənir. Əlbəttə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana növbəti səfəri iki qardaş ölkənin yeni hədəflərinin müəyyən olunması baxımından böyük tarixi hadisəyə çevriləcəkdir.

***Zümrüd BAYRAMOVA***

# “Prezidentin müsahibəsi münasibətlərin dərin strateji xarakterini nümayiş etdirdi”

**“Prezident İlham Əliyevin Qazaxıstana səfəri ərəfəsində ”Kazinform” agentliyinə verdiyi müsahibə Azərbaycan-Qazaxıstan münasibətlərinin dərin strateji xarakterini bir daha nümayiş etdirdi. Dövlət başçısının fikirlərində iki ölkə arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığın hərtərəfli inkişafı ilə yanaşı, bu tərəfdaşlığın Türk dünyası və regional inteqrasiya baxımından da əhəmiyyətli olduğu vurğulanır. Prezident qeyd edir ki, qarşılıqlı etimad, ortaq tarixi-mədəni köklər və türk kimliyi üzərində qurulan bu əlaqələr artıq sadəcə dostluq çərçivəsini aşaraq strateji müttəfiqlik səviyyəsinə yüksəlib”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Züriyyə Qarayeva deyib.**

O bildirib ki, müsahibədə xüsusilə iqtisadi və nəqliyyat sahəsində əldə edilən irəliləyişlər ön plana çıxır: ”Prezident Əliyev Orta Dəhlizin genişlənməsi, Aktau və Ələt limanları arasında logistika imkanlarının artırılması, neft-qaz və yaşıl enerji sahəsində əməkdaşlığın gücləndirilməsini iqtisadi tərəfdaşlığın əsas sütunları kimi dəyərləndirir. Qazaxıstan kapitalı ilə Azərbaycanda fəaliyyət göstərən şirkətlərin artması və qarşılıqlı investisiya həcmlərinin yüksəlməsi iki ölkənin iqtisadi əlaqələrinin sağlam təməl üzərində qurulduğunu göstərir.



Müsahibədə Türk Dövlətləri Təşkilatının rolu xüsusi qeyd olunur. Prezident Əliyev TDT-nin Azərbaycan və Qazaxıstan üçün təkcə siyasi platforma deyil, həm də türk dünyasının mədəni və elmi inteqrasiyasını təmin edən strateji mexanizm olduğunu vurğulayır. Qəbələ və Şuşada keçirilən zirvə görüşlərinin, eləcə də Beynəlxalq Türk Akademiyasının fəaliyyətinin Türk dünyasının birliyini möhkəmləndirdiyi bildirilir.

Prezidentin toxunduğu daha bir vacib məsələ Xəzər dənizinin dayazlaşması və bunun doğurduğu ekoloji təhlükələrdir. O, Xəzəryanı dövlətlərin bu istiqamətdə koordinasiyalı fəaliyyət göstərməsinin, elmi məlumat mübadiləsinin və birgə tədbirlərin vacibliyini qeyd edir. Bu yanaşma Azərbaycanın ekoloji məsuliyyətə və regional əməkdaşlığa verdiyi önəmi göstərir. Ümumilikdə, müsahibə göstərir ki, Azərbaycan ilə Qazaxıstan arasında münasibətlər təkcə iki ölkənin maraqları ilə məhdudlaşmır, həm də Türk dünyasının birliyi, Avrasiya məkanında sabitlik və qarşılıqlı iqtisadi inteqrasiya baxımından strateji əhəmiyyət daşıyır. Əliyevin sözləri həm praqmatik, həm də ideoloji baxımdan Orta Asiya və Cənubi Qafqaz arasında yeni əməkdaşlıq modelinin formalaşdığını göstərir”.

***Səbinə Hüseynli***

# “Səfər Azərbaycanın dinlərarası dialoqa sadiqliyini göstərdi”

***“Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Vatikana səfəri Azərbaycanın dünya mədəni irsinə dərin hörmətinin və xalqımızın zəngin tolerantlıq ənənələrinin təcəssümüdür”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Yusif Bağırzadə deyib.***

Onun sözlərinə görə, bu səfər bir daha ölkəmizin dinlərarası anlaşma, tolerantlıq və mədəniyyətlərə hörmət strategiyasını beynəlxalq arenada nümayiş etdirmiş oldu: ”Bu səfərin əhəmiyyəti, həm də onun humanitar diplomatiya vasitəsilə Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirməsindədir. Dünyanın müxtəlif bölgələrində dini və mədəni zəmində münaqişələrin artdığı bir dövrdə Azərbaycanın bu istiqamətdəki fəaliyyəti ölkəmizin dinlər və mədəniyyətlərarası dialoqa sadiqliyini bir daha sübut edir. Bu, Azərbaycanın qlobal sülh və anlaşma proseslərinə töhfə vermək əzmində olan, məsuliyyətli beynəlxalq lider kimi çıxış etdiyini göstərən mühüm bir mesajdır.



Ümumiyyətlə, hörmətli Mehriban xanımın Heydər Əliyev Fondunun rəhbəri kimi fəaliyyəti dinlər və mədəniyyətlərarası dialoqa verdiyi xüsusi töhfələrlə seçilir. Bu fəaliyyətin bariz nümunələrinə Parisdəki Luvr muzeyi, Versal sarayı, Strasburq Kafedralı və Roma katakombalarında həyata keçirilən layihələri misal göstərmək olar. Mehriban xanımın həyata keçirdiyi bu təşəbbüslər ölkəmizin beynəlxalq nüfuzunu və mədəni cəlbediciliyini artırmaqla yanaşı, Azərbaycana yeni dostlar və tərəfdaşlar qazandıran strateji bir yanaşmanı əks etdirir.

Nəticə etibarilə, bu səfər Azərbaycanın yalnız regionda deyil, dünya siyasətində də mədəniyyətlərarası dialoq və humanitar diplomatiya sahəsində öncül rol oynadığını bir daha təsdiqlədi. Mehriban





xanım Əliyevanın səfəri ölkəmizin beynəlxalq nüfuzunun yüksəlməsi, sülh, əməkdaşlıq və qarşılıqlı hörmət prinsiplərinin təşviqi baxımından böyük əhəmiyyət daşıyır”.

***Günel Fərzəliyeva***

# İtaliyadan baxış: Azərbaycanın Birinci vitse-prezidentinin Vatikan səfəri sülh, hörmət və mənəvi vəhdət mesajıdır



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vatikana rəsmi səfəri sivilizasiyalararası humanitar və mədəni dialoqun inkişafında mühüm mərhələdir. Bu səfər Azərbaycanın Şərq və Qərb, islam və xristian dünyaları arasında körpü rolu oynadığını bir daha təsdiqləyir. Çoxəsrli dinlərarası və mədəniyyətlərarası birgəyaşayış ənənələrinə malik Azərbaycan dövləti tolerantlıq, qarşılıqlı hörmət və mədəni irsin qorunması kimi dəyərlərə sadiqliyini növbəti dəfə nümayiş etdirib.

Bunu AZƏRTAC-a beynəlxalq münasibətlər üzrə italyalı jurnalist və ekspert Domeniko Letitsiya söyləyib. O bildirib ki, Heydər Əliyev Fondunun Romadakı Kommodilla katakombalarının bərpası, eləcə də Vatikanın əlyazmalarının və mədəni abidələrinin qorunmasına yönəlmiş fəaliyyəti humanitar diplomatiyanın xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə necə xidmət edə biləcəyinin bariz nümunəsidir.

”Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əməkdaşlıq göstərir ki, mədəni diplomatiya sülh alətinə çevrilə bilər. Bu, sadəcə rəmzi jest deyil, dinlər və mədəniyyətlərarası dialoqun tez-tez kövrək olduğu dünyada etimad və həmrəyliyin möhkəmləndirilməsinə konkret töhfədir”, - deyə ekspert vurğulayıb.

Domeniko Letitsiya, həmçinin qeyd edib ki, Mehriban Əliyevanın Vatikan səfəri təkcə ikitərəfli münasibətlər baxımından deyil, bütövlükdə beynəlxalq ictimaiyyət üçün də əhəmiyyət daşıyır. ”Azərbaycan özünü təkcə Avropanın enerji və iqtisadi tərəfdaşı kimi deyil, həm də bəşəriyyətin ortaq irsinin qorunması üzrə mədəni və humanitar layihələrin təşəbbüskarı kimi göstərir. Bu amil ölkəni qlobal sivilizasiyalar dialoqunun mühüm iştirakçısına çevirir. Azərbaycanın Birinci vitse-prezidentinin Vatikan səfəri sülh, hörmət və mənəvi birliyin mesajıdır və beynəlxalq arenada yüksək qiymətə layiqdir”, - deyə D.Letitsiya əlavə edib.

# Ömrü dastana dönmüş Şəhidimiz

Azərbaycanın son 30 ildə torpaqları şəhid qanı ilə suvarılıb. Şəhid qanı ilə suvarılan torpaq ən müqəddəs torpaqdır. Cadar-cadar olmuş torpaqlara nəfəs, can gəlir. Bu torpağa nə qədər şəhid qanı tökülüb. Yaşından asılı olmayaraq, bu torpaq uğurunda şəhid olub və ayaq qoyduğumuz hər qarışın müqəddəsliyini dərk etməliyik. 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan odusunun rəşadətli qələbəsi şəhidlərimizin qanını yerdə qoymadı. Qisas qiyamətə qalmadı. Əlbəttə ki, canını vətən torpağının işğaldan azad olunması yolunda sipər edən vətən oğulları böyük igidlik, şücaət göstərərək, düşmənə qalib ölkənin ölümün gözünə dik baxan oğullarının vətənpərvərliyini göstərə bildilər. Hər bir insan üçün ən ali bir hissdir Vətən sevgisi, torpaq məhəbbəti. Vətənsiz millət, millətsiz isə Vətən ola bilməz. Bəli, Azərbaycanın bu torpağa, Vətənə "Ana" - deyən övlvadları var. Elə 44 günlük Vətən müharibəsində şəhid olan minlərlə oğullarımız kimi. Adları dillərimizdə dastan olan igidlərimiz - şəhadətə qovuşan şəhid oğullar. Hər birinin həyatı bir hekayədir, dastandır. Qəhrəmanlıq dastanı.

Dumanlı dağların başında durdum
Dumandan özümə bir xeymə qurdum.
Keçdi xəyalımdan öz gözəl yurdum
Dumanlar başında duman göründü
Duman göründü...

Bu misralar səsləndikcə uzaq bir dünyaya boylanırsan. Sanki qeybdən gələn bir səsin sehrinə düşüb, vətən sevgisində yoğrulmuş bir dünya ilə baş-başa qalırsan - Xudayar dünyası ilə. 22 illik ömrünə beş il əvvəl ilin bu günü vida deyərək, şəhid olan vətən oğlu. Şücaəti ilə adı əfsanələşdi. Belə bir Azərbaycanın qəhrəman oğlu bir neçə gün ərizində xalqının sevilən bir qəhrəmanına çevrildi. Hər kəsə nəsib olmayan şəhidlik zirvəsinə yüksəldi. "Vətən arzusuyla nəğmələr qoşdum, Tufanlar qarşımda dastana döndü", - deyə oxuyan Xudayarın od- alov, atəş içində ömrü dastana çevrildi. Şəhidliyi ömür payı olan Xudayarın döyüş yolu, göstərdiyi şücaət bu gün hər bir gəncə örnəkdir.

## VƏTƏN ƏMANƏTİ, YURD ƏMANƏTİ

Bu gün onun ömür yolunu vərəqləyirik: Xudayar Müslüm oğlu Yusifzadə. 15 iyul 1998-ci ildə Bərdə şəhərində dünyaya gəlib. Atası Bərdənin tanınan qarmon ustası Müslüm Yusifoğlu, anası - Rada Yusifzadə isə evdar xanım idi. Ailədə dörd uşaq olublar - üç



qardaş və bir bacı. Tale elə gətirib ki. Xudayar Yusifzadənin doğumundan 24 gün sonra atası vəfat edib. Xudayar Yusifzadə 2004-2015-ci illərdə Bərdə şəhərində Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində təhsil alıb. 2016-2018-ci illərdə Dövlət Təhlükəsizliyi Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətdə olub. Daha sonra isə o, Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olaraq xidmət edib və "gizir" hərbi rütbəsi alıb. 2020-ci ilin Tovuz döyüşləri zamanı general-mayor Polad Həşimovun şəhid olmasından sonra öz istəyi ilə Bərdə rayon Hərbi Komissarlığına müraciət edib. Gözünü dünyaya açan zaman məkan olaraq ilk gördüyü Vətən torpağı olan Xudayar məqam yetişən kimi onun yolunda ölümə belə hazır olduğunu könüllü olaraq ordu sıralarına yazılmaqla göstərdi. Vətən babalarımızdan, əcdadlarımızdan bizə qalan yurd yerimizdir. Əsgər isə Vətən əmanəti, yurd əmanətidir.

## YOLU GƏLƏCƏK NƏSİLLƏRƏ MƏKTƏB

Azərbaycan Ordusunun Sərhəd Qoşunlarının giziri olan Xudayar 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı əvvəlcə Füzuli rayonunda sərhəd məntəqəsində xidmət edir, daha sonra isə Cəbrayılın və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Xudayar Yusifzadə oktyabrın 22-də Zəngilan döyüşləri zamanı Ağbənd istiqamətində şəhid olub. Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə orden və medallarla təltif olunub. Belə ki, Xudayar Yusifzadə ölümündən sonra "Vətən uğrunda", "Zəngilanın azad olunmasına görə" medalları, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Ölkəmizin hər bir yerində Vətən torpaqlarının azadlığı uğrunda canından keçmiş şəhidimizin xatirəsi uca tutulur. Azərbaycanda şəhidlik hörmət və ehtiramın ən ali məqamı səviyyəsinə ucalıb. Bu gün Bərdə şəhərinin Bülbül adına 1 nömrəli Uşaq İncəsənət Məktəbində Xudayarın büstü qoyulub. İndi bu məktəbə gələn hər bir insan onun böyük bir məslək yolunda şəhid olduğunu biləcək və keçdiyi həyat yolu gələcək nəsil tərəfindən zaman-zaman öyrəniləcəkdir.

## İNSANÇÜN LALƏZAR VƏTƏN YAXŞIDIR

Qısa bir ömür yolunda ən ali zirvəyə yüksəldi. Şəhidlik zirvəsində xalqımız tərəfindən tanındı və sevildi. "Xudayar təsnifi" ilə fenomenə çevrildi. Sanki bu mahnıya yeni ömür caladı - şəhid Xudayar ömrü. Özü kimi mahnı da əfsanəviləşdi. Ölümündən 2 gün əvvəl Əliağa Vahidin "Vətən yaxşıdır" şeirinə yazılmış mahnını ifa etdi və ona yeni bir nəfəs verdi. Elə bir nəfəs ki, hər bir zaman dilləndikcə ruhları oyadacaqdır. Sanki mahnı yenidən yazıldı və mahnının sözləri böyük bir sevgisi ilə Vətən aşiqinin dili ilə yoğruldu. Hərdən insan təəccüblənir ki, illərlə ifa olunan bu təsnifin nəyə görə məzmununa bu qədər dərindən varmırdı. Səs, ifa, görkəm və ən sonda vətənə bağlı ömrün şəhadəti "Xudayar təsnifi"ni bizlərin qəlbində əbədiləşdirdi. Mahnı oxunanda insan ruhu başqa bir dünyaya qovuşur. Mahnıya "Xudayar təsnifi"nin verilməsi vətənin şəhid oğluna olan diqqət idi. Ona olan böyük sevgi idi. Xudayar adının bir musiqidə əbədiləşməsi idi. Xudayar Yusifzadənin ifasında "Vətən yaxşıdır" təsnifi yeni oranjemanda təqdim olundu. Əlbəttə ki, bir musiqidə deyil, bütöv bir xalqın qəlbində yuva qurdu Xudayar.

Deyirlər bülbülə çəmən yaxşıdır
İnsançün laləzar vətən yaxşıdır.
Vahid, sorma vətən nədən yaxşıdır?
Adı gəlcək könlüm xəndan göründü
Xəndan göründü...



Bəli, bu gün minlərlə şəhidimiz kimi Xudayarın da ruhu şaddır, xəndandır. İşğaldan azad olunan torpaqlarımızda tökdükləri qan ilə işğalda olan torpaqlarımızı azad etdilər. Bu gün qan ilə suvarılmış torpağımızda yeni fidanlar böyüyəcək. Torpağı sevəcək və Xudayar kimi oğulların davamçıları olacaqlar. Xudayar bir evin, bir obanın deyil, Azərbaycan övladıdır. Bu gün ölümündən beş il ötür. Ruhun şad olsun, Xudayar. Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Rusiyalı ekspert: Heydər Əliyev SSRİ-yə rəhbərlik etsəydi, ittifaq dağılmayacaq və çiçəklənəcəkdi

## Aleksandr Razuvaev: Regional vəziyyət Moskva ilə Bakı arasında müsbət münasibətlərdən asılıdır

***Tanınmış rusiyalı politoloq və iqtisadçı Aleksandr Razuvayev "Moskva-Baku" portalına verdiyi şərhində regionda yaranmış vəziyyət və Rusiya və Azərbaycan arasında müsbət münasibətlərdən danışıb. Ekspertin fikirlərini oxucularımıza təqdim edirik.***

***- Aleksandr Yuryeviç, Vladimir Putinlə İlham Əliyevin Düşənbə görüşündən sonra Rusiya-Azərbaycan münasibətlərindəki vəziyyəti necə şərh edərdiniz?***

- MDB-nin Düşənbədə keçirilən sammiti, məncə, Rusiya və Azərbaycan liderlərinin çətin məsələlərin səmimi və mənalı müzakirəsi üçün ən neytral və müsbət platforma rolunu oynadı.

Çox təqdirəlayiq haldır ki, Rusiya və Azərbaycan prezidentləri yığılmış məsələləri müzakirə etmək üçün siyasi iradə tapdılar; hamı bunu çoxdan gözləyirdi. Və bu baş verməli idi. Hesab edirəm ki, bu görüş son dərəcə düzgün qərar idi,



çünki həm Rusiya, həm də Azərbaycanın sakit, qarşılıqlı faydalı və qarşılıqlı hörmət əsasında əməkdaşlığa ehtiyacı var. Moskva və Bakı üçün açıqlıq, şəffaflıq və ən mürəkkəb məsələləri həll etmək bacarığı bütün sahələrdə səmərəli əməkdaşlığın açarı, Cənubi Qafqazda və Xəzəryanı regionlarda sabitliyin və dinc inkişafın artmasının, xalqlarımız arasında dialoqun güclənməsinin açarıdır.

İki lider arasındakı dialoqu canlı efirdə müşahidə etdik və onun müsbət strukturlaşdığını söyləmək olar. Hər iki lider bir-birinə qarşı atılan siqnallara və qarşılıqlı addımlara müsbət cavab verdilər. Bu son dərəcə vacibdir.

Əminəm ki, hər iki tərəfin rəsmi şəxsləri prezidentlərin mesajlarına qulaq asacaqlar və münasibətlərdəki bütün həll edilməmiş məsələlər uğurla həll olunacaq, bütün "qadağalar" aradan qaldırılacaq, təkcə iqtisadiyyatda deyil, həm də əməkdaşlığın digər sahələrində ənənəvi müntəzəm qarşılıqlı əlaqə qurulacaqdır.

Bəli, təbii ki, Rusiya ilə Azərbaycanın dost olmasından narazı olan qüvvələr var.

Mən dərindən əminəm ki, vaxtilə Heydər Əliyev Sovet İttifaqına rəhbərlik etsəydi, SSRİ dağılmayacaq və o nəhəng ölkə üçün hər şey çox çiçəklənəcəkdi.

Dünən bu görüşdən sonra Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova qeyd edib ki, Moskva Azərbaycanla müttəfiqliyinin tam inkişafına, eləcə də beynəlxalq strukturlarda Bakı ilə daha da sıx əməkdaşlığın tərəfdarıdır. Təbii ki, bu, Rusiya tərəfinin mühüm mesajıdır. Bunun fonunda mən MDB çərçivəsində ümumi dəyərlərin, ümumi anlaşmanın və müəyyən dərəcədə ortaq mədəni məkanın qorunub saxlanmasını vacib hesab edirəm. MDB sammitində hərbi əməkdaşlıq planı qəbul edilib. Fikrimcə, ölkələrimiz arasında hərbi əməkdaşlıq daha da inkişaf etdirilməli, hətta ola bilsin ki, vahid müdafiə siyasəti, vahid müdafiə məkanı, eləcə də vahid iqtisadi məkan formalaşdırılmalıdır.

Rusiya və Azərbaycan üçün ticarət-iqtisadi əməkdaşlığın inkişafı, nəqliyyat sektorunda layihələrin həyata keçirilməsi böyük əhəmiyyət kəsb edir. Bu günlərdə Bakıda Şimal-Cənub Nəqliyyat Dəhlizinin İran-Azərbaycan sərhədində bir hissəsinin tikintisi ilə bağlı Rusiya-Azərbaycan-İran danışıqları aparılıb. Bu beynəlxalq nəqliyyat dəhlizi Rusiya üçün son dərəcə vacibdir.

Rusiya ilə Azərbaycan arasında regionlararası əməkdaşlıq iqtisadi baxımdan da mühüm əhəmiyyət kəsb edir. Ümid edirəm ki, ölkələrimiz tezliklə ənənəvi regionlararası forum təşkil edəcəklər. İki ölkənin regionları arasında gərgin gündəm yaradılıb, ona görə də biz nəticələri gözləyirik.

***Tərcümə - Elçin***

# Türk dünyasında akademik inteqrasiya




***Mərkəzi Asiyada varlığını genişləndirən Türkiyə və Azərbaycan təhsil və miqrasiyanı da əhatə edən yeni inteqrasiya mərhələsinə qədəm qoyurlar. Regionun əsas ölkələri ilə fəal müdafiə əməkdaşlığı fonunda Ankara və Bakı təhsil standartlarının unifikasiyası və türk dövlətləri vətəndaşlarının məşğulluğunun sadələşdirilməsi istiqamətində addımlar atırlar. Türk ölkələrinin universitet rektorlarının Daşkənddə keçirilən görüşü və prezident Ərdoğanın bu ölkələrin vətəndaşlarının Türkiyə əmək bazarına sərbəst çıxışı haqqında fərmanı Türkiyənin yeni regional arxitekturanın yaranmasından xəbər verir.***

Oktyabrın 14-dən 17-dək Daşkənddə Türkdilli Universitetlər Birliyinin 8-ci Baş Assambleyası keçirilib. Tədbirdə Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan, Şimali Kiprdən 70 universitetdən 200 rektor və alim, həmçinin Türk Akademiyasının (TÜRKSOY) nümayəndələri iştirak edib. İclasda birgə təşəbbüslərin inkişafı, akademik əməkdaşlığın gücləndirilməsi və İttifaqın gələcək inkişafı üçün əsas qərarların qəbulu fəal müzakirə olunub.

Əvvəllər 109 universitetin daxil olduğu Türkdilli Universitetlər Birliyinə daha 62, o cümlədən Özbəkistandan altı yeni universitet qoşulub. Baş Assambleyada Türkiyə daimi katibliyin, tədqiqat proqramlarına dəstək fondunun yaradılmasını və təhsil standartlarının əlaqələndirilməsini təklif edib. Mütəxəssislərin fikrincə, Türkiyə türk dünyası üçün vahid təhsil məkanı konsepsiyasını fəal şəkildə təbliğ edir - mahiyyətcə Boloniya prosesinin analoqu, lakin milli xüsusiyyətləri ilə Ankaranın qərar qəbuletmə mərkəzinə çevrilir. Bu təşəbbüs türk akademik inteqrasiyasını güclü siyasi təsir vasitəsinə çevirərək Türkiyənin koordinator kimi mövqeyini gücləndirir.

Assambleya çərçivəsində universitetlər arasında imzalanan 20-dən çox əməkdaşlıq müqaviləsi Türkiyənin ciddiliyini təsdiqləyir. Bunların əksəriyyəti Türkiyə təhsil proqramları üzrə kadr hazırlığını, ortaq tədqiqat mərkəzlərinin yaradılmasını və Türkiyə fondları tərəfindən maliyyələşdirilən təqaüd proqramlarının genişləndirilməsini nəzərdə tutur. Bu, akademik əməkdaşlıqdan daha çoxunu nümayiş etdirir: Türkiyə öz mədəni və siyasi gündəminə fokuslanmış tələbə və fakültə nəslini formalaşdırır. Akademik mobillik ideoloji yaxınlaşmanın əsas mexanizminə çevrilir, türkiyəli fakültə Mərkəzi Asiya universitetlərində aparıcı mövqeləri tutur.

Assambleya təhsilin rəqəmsallaşdırılması və türk dünyası universitetləri üçün ortaq onlayn platformanın yaradılmasına xüsusi diqqət ayırıb. İlk baxışdan bu, texnoloji yenilik kimi görünsə də, reallıqda məlumat və təhsil məzmununun mərkəzləşdirilmiş şəkildə idarə olunmasına doğru bir addımdır. Lazımi texniki infrastruktura və resurslara malik Türkiyə bu platformanın operatoru olmağa çalışır və bununla da elmi məlumat bazaları, tədris materialları və regiondakı universitetlər arasında əlaqə kanalları yaradır. Məclisdə həmçinin "Alp Ər Tonqun övladları - Qaraxanilər" adlı konfrans keçirilib. Tədbirin məqsədi türk xalqları arasında mədəni-humanitar əməkdaşlığı gücləndirmək, onların ortaq tarixini, mədəniyyətini, dinini, dilini və ədəbiyyatını beynəlxalq miqyasda təbliğ etmək, Qaraxanlılar dövrünün (812-1211) tarixi-mədəni irsini yaymaq, türk birliyini təbliğ edən keçmişin versiyasını gənclərə çatdırmaqdır. Bu, təkcə akademik əməkdaşlıq deyil. Türkiyə, baxışları onun mədəni və siyasi gündəminə uyğun olacaq yeni nəsil tələbə və müəllimlər yetişdirmək üçün fəal şəkildə çalışır. Təhsil təşəbbüsləri türk dəyərlərini və regional inkişafa baxışı paylaşan kadrların yetişdirilməsi üçün bir vasitə rolunu oynayır.

Türk Dövlətlərinin Parlament Assambleyası (TÜRKPA) öz növbəsində dil birliyini və parlament diplomatiyasını fəal şəkildə təşviq edən Qanun və Qamu rəqəmsal layihələrini hazırlayıb. TÜRKPA baş katibi Mehmet Süreyya Ərin qeyd etdiyi kimi, Qanun axtarış və fərdiləşdirmə xüsusiyyətləri ilə beş türk ölkəsinin qanunvericiliyini beş dildə və ingilis dilində birləşdirən platformadır. Qamu türk, azərbaycan, qazax, qırğız, özbək, türkmən, başqırd, tatar, uyğur dillərinin lüğət tərkibini müqayisə edən, türk dünyasının dil birliyini dərinləşdirən rəqəmsal lüğətdir.

Türkiyə həmçinin Ordu, Hərbi Dəniz Qüvvələri (xüsusən Xəzər Donanması), Hərbi Hava Qüvvələri (o cümlədən F-16 pilotları və Bayraktar operatorları), eləcə də hərbi akademiyalarında terrorla mübarizə üzrə mütəxəssislər və sərhəd mühafizəçiləri üçün zabitlər yetişdirməklə birləşmiş ərazi icmalarında effektiv hərbi elita yaradır. Sovet və Rusiya təcrübələrindən fərqli olaraq, Türkiyə proqramı NATO taktikasına və "Türk birliyi" konsepsiyasına giriş təklif edir. Məzunlar Orta Asiya ölkələrində türkyönlü lobbilər təşkil edərək, Türkiyə silahlarının istifadəsini və hərbi təlimlərini təbliğ edirlər.

Ankara da miqrasiya siyasətini effektiv formalaşdırır. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan türkdilli xalqların nümayəndələrinə əmək hüquqlarının verilməsi prosesinin sadələşdirilməsi haqqında fərman imzalayıb. Sənəd hökumət qəzetinin rəsmi saytında dərc olunub. Bundan sonra birləşmiş ərazi icmalarının (ATC) vətəndaşları Türkiyədə mürəkkəb icazə prosedurları olmadan işləyə biləcəklər. Onlara ordu və təhlükəsizlik orqanlarında xidmət istisna olmaqla, dövlət və özəl sektor təşkilatlarında sərbəst işləmək və sənətlə məşğul olmaq imkanı verilir. Türkiyənin türk dövlətlərinin vətəndaşları üçün məşğulluğu sadələşdirmək qərarı Rusiyanın miqrasiya siyasətinə ciddi problem yaradır. "Crocus City Hall"da baş verən faciəvi hadisələrdən sonra Rusiyanın Mərkəzi Asiyadan miqrasiyaya nəzarəti gücləndirməsi fonunda prezident Ərdoğan Türkiyəni daha açıq və dost bir alternativ kimi mövqeləndirir. Beləliklə, Ankara regionun türk xalqları üçün cəlbedici bir lider kimi özünə yer tapmağa çalışır. Rusiyada miqrasiya qanunvericiliyinin sərtləşdirilməsi fonunda atılan bu addım Moskvadan həm daxili siyasətinə, həm də Aİİ çərçivəsində qarşılıqlı fəaliyyətə yanaşmalarına yenidən baxmağı tələb edəcək.

**V.VƏLİYEV**

---



Elçin Bayramlı

## 1 milyard adam niyə acdır? Ərzaq çatmır, yoxsa...?

***BMT-nin Dünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının məlumatına əsasən, bu gün dünyada 850 milyon insan aclıq çəkir. Bəzi təşkilatlar isə bu rəqəmin 1 milyard olduğunu deyirlər. Daha 3 milyard insan isə yetərsiz və keyfiyyətsiz qidalanır. Bunun səbəbi sadəcə tamahkarlıq, israfçılıq və sərvətlərin ədalətsiz bölüşdürülməsidir. Çünki, dünyanın hazırki ərzaq istehsalı düzgün istifadə olunacağı və ədalətli bölüşdürüləcəyi təqdirdə müxtəlif qiymətləndirmələrə görə 13-15 milyard insanı təmin edəcək gücdədir.***

Hər il dünya üzrə 4 milyard tonluq ərzaq istehsal olunur. İstehsala aid edilməyən və statistikaya düşməyən (çöldən, meşədən yığılan bitkilər, çaydan, göldən tutulan balıq, ovdan əldə olunan heyvanlar, öz həyətindən yığılan meyvə-tərəvəz və s.) ərzaq məhsullarını da 2 milyard ton nəzərə alsaq, qlobal ərzaq əldə edilməsinin faktiki həcmi ən pis halda 6 milyard tondur. Yəni, adambaşına illik ərzaq istehsalı 750 kq-dan çoxdur. Bu isə insanın illik qida qəbulu normasından azı 2 dəfə yuxarıdır. Yəni, hazırkı faktiki ərzaq istehsalı normal istifadə olunduğu və düzgün bölüşdüyüldüyü halda 15 milyarda yaxın adamı təmin edəcək gücdə olduğu halda dünyada 1 milyard ac var, daha 2 milyard isə yoxsulluq içində yaşayır.

Qlobal ərzaq istehsalının 1/3-i- 1 trilyon dollar dəyərində 1,3 milyard ton qida məhsulu zibilliyə atılır. İstehsal edilmiş meyvə-tərəvəzin 45%-i, balıq məhsullarının 35%-ini, çörəyin 30%-i, ət və süd məhsullarının 20%-i zibilə atılır. Bu 3 km diametri və 2500 m hündürlüyü olan "israf dağı" deməkdir.

Dünya nemətlərinin 80 faizlik hissəsini cəmi 20 faiz əhali istehlak edir, qalan 80 faiz əhali isə cəmi 20 faizi ilə dolanır. Hazırda dünya əhalisinin kiçik bir hissəsi resursların əksəriyyətini israf edərək istehlak edir.

ABŞ-da hər il 155 milyard dollar dəyərində 100 milyon tondan çox ərzaq zibilliyə atılır. Yəni Afrika qitəsinin illik idxalının 4 misli qədər qida məhsulu təkcə Amerika xalqı tərəfindən məhv edilir.

Avropa İttifaqında isə ildə 140 milyard avro dəyərindəki 90 milyon ton qida zibilliyə atılır. Adambaşına düşən qida tullantıları 2021-ci ildə 131 kiloqrama çatıb, halbuki Afrikada adambaşına illik qida qəbulu həcmi 10 kq təşkil edir. Təkcə İngiltərədə ildə 17 milyon ton yemək israf edilir.

Hesablamalara görə, təkcə ABŞ və Böyük Britaniyada bəyənilməyib zibilliyə atılan qidalarla 1 milyard insanı aclıqdan xilas etmək olar. Bundan başqa, varlı ölkələrdə insanların qəbul etdiyi gündəlik qida həcmi 50-100 il əvvəlki dövrə nisbətən çəki etibarilə 2 dəfə artmışdır. Yəni, elmi şəkildə təsdiq olunan və bioloji olaraq olaraq insanın gündəlik qida norması 700-800 qram olmalı olduğu halda, hazırda bu rəqəm ortalama olaraq 1,5 kq-dan yuxarıdır. Bu deməkdir ki, bir çox insanlar 2 nəfərin gündəlik payını istehlak etmiş olur.

Beləliklə, bütün bu faktları nəzərə aldıqda aydın olur ki, əslində, normal insan cəmiyyətinin yaradılacağı bir halda hazırkı istehsal həcmi belə ən pis halda indikindən 2 dəfə çox insanı təmin edəcək qədərdir.

Dünyanın potensial ərzaq istehsalı isə ən azı 50-60 milyard insanı tam təmin etmək gücündədir. Okeanların da qida resurslarından tam istifadə edildiyi, həmçinin istehsal və emal zamanı 30-40 faizə çatan itkilərin, 20 faizə çatan israfçılığın qarşısı alındığı təqdirdə bu rəqəmin 80-100 milyarda qədər yüksələ biləcəyini bir çox nüfuzlu alimlər qeyd edir.

Deməli, aclıq və yoxsulluqla bağlı dünyamızdakı problemlərin səbəbi heç də qlobalistlərin, transhumanistlərin iddia etdiyi kimi insan sayının çoxluğunda deyil, əksinə planetimizin ölçüləri ilə müqayisədə hazırki insan sayı xeyli azdır. İnsanlar dünyanın quru ərazisinin heç 10 faizində belə məskunlaşmayıb. Problem ədalətsiz sosial-iqtisadi sistem, israfçılıq və başqalarının payını mənimsəməklə bağlıdır.

Elə bir qlobal sistem qurulub ki, 3-cü dünya ölkələrinin sərvətləri istismar olunub qərb ölkələrinə daşınır. Nəticədə ən böyük sərvətlərə malik ölkələrin əhalisi yoxsulluq içində yaşayır, istismarçı ölkələr isə zənginlik içində. Qlobal bərabərsizliyin səviyyəsi getdikcə böyüyür. Planetimizin nəhəng təbii resursları olduğu halda milyonlarla insanın acından ölməsi bəşəriyyətin ən böyük rəzalətidir. Bu, artıq insan cəmiyyəti deyil, ibtidai təfəkkürlü qlobal canlı kütləsidir.

# Dabaq xəstəliyi:

## yayılma, risklər və ət satışına təsiri




***Son vaxtlar heyvanlar arasında dabaq adlı xəstəliyin yayılması barədə məlumatlar artır. Bu xəstəlik cütdırnaqlı heyvanlarda (inək, qoyun, keçi, camış və s.) sürətlə yayılan, həm kənd təsərrüfatına, həm də iqtisadiyyata böyük zərər vuran bir virus xəstəliyidir. Dabaq əsasən heyvanların ağız boşluğunda, dırnaqları arasında və bəzən yelin hissəsində yaralar əmələ gətirir, bu da onların yem qəbulunu, hərəkətini və süd istehsalını azaldır.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.



### Xəstəliyin yaranma və yayılma yolları



Dabaq virus mənşəlidir və çox asanlıqla bir heyvandan digərinə keçir. Virus həm hava, həm də təmas yolu ilə, yəni yoluxmuş yem, su, alət, paltar və nəqliyyat vasitələri vasitəsilə yayılır. Xəstə heyvanın ağız suyu, südü və nəcisi də yoluxucu olur. Virus soyuq şəraitdə uzun müddət sağ qala bilər, bu da onun başqa fermalara və bölgələrə keçmə ehtimalını artırır.

### Əlamətləri və təsirləri

Xəstə heyvanlarda yüksək hərarət, ağız içində köpüklü axıntı, dırnaqların ətrafında və yelin hissəsində su dolu qabarcıqlar yaranır. Heyvanlar yem yemir, axsama başlayır və süd verimi xeyli azalır. Xəstəlikdən sonra heyvan sağalsa da, uzun müddət zəif qalır və məhsuldarlığı azalır. Bala heyvanlarda bəzən ölüm halları da müşahidə olunur.

### İnsan sağlamlığı üçün risk varmı?

Dabaq əsasən heyvan xəstəliyidir və insanlara ciddi təhlükə yaratmır. Nadir hallarda xəstə heyvanla birbaşa təmasda olan insanlarda yüngül dərəcəli dəri və ya ağız yaraları görünə bilər, amma bu hallar çox az olur. Buna baxmayaraq, xəstə heyvanın ətinin və südünün istifadəsinə icazə verilmir. Rəsmi yoxlamalardan keçmiş və bişmiş ət-süd məhsulları insanlar üçün təhlükə daşımır.

### Ət satışına və bazara təsiri

Dabaq xəstəliyinin yayılması ət satışına birbaşa təsir göstərir.

Bazar məhdudiyyətləri. Xəstəlik aşkar olunan bölgələrdə heyvanların daşınması və satışı dayandırılır. Bu da ət təchizatında azalma və qiymət dəyişikliklərinə səbəb olur.

İxrac problemləri. Xəstəliyin yayıldığı ölkələrə digər ölkələr heyvan və ət məhsullarının idxalını məhdudlaşdırır. Bu, ixrac imkanlarını azaldır və fermerlər üçün maddi itki yaradır.

İctimai narahatlıq. İnsanlar arasında qorxu və yanlış məlumatlanma səbəbindən ətə olan tələbat azalır. Halbuki rəsmi nəzarətdən keçmiş məhsullar təhlükəsizdir.



### Qarşısının alınması və görülən tədbirlər

Dabaqla mübarizə üçün əsas məqsəd virusun yayılmasının qarşısını almaqdır.

Rəsmi tədbirlər:

Yoluxmuş və şübhəli heyvanların dərhal təcrid olunması;

Heyvan və məhsulların bir yerdən digərinə daşınmasının dayandırılması;

Lazım gəldikdə xəstə heyvanların zərərsizləşdirilməsi;

Heyvanların peyvəndlənməsi;

Fermalarda dezinfeksiya işlərinin aparılması.

Fermerlər üçün məsləhətlər:

Fermaya yad şəxslərin girişini məhdudlaşdırmaq;

Avadanlıqları və geyimləri hər istifadədən sonra təmizləmək;

Heyvanlarda ağız və dırnaq yaraları gördükdə dərhal baytar həkiminə məlumat vermək;



Yemin və suyun təmizliyinə diqqət etmək.

İstehlakçılar üçün tövsiyə:

Əti yalnız rəsmi satış yerlərindən almaq;

Əti yaxşı bişirmək;



Rəsmi orqanların məlumatlarını izləmək və panikaya düşməmək.

Dabaq xəstəliyi heyvandarlıq üçün ciddi təhlükədir. Xəstəliyin yayılması məhsuldarlığı azaldır, iqtisadi zərər yaradır və ət bazarına mənfi təsir göstərir. Lakin vaxtında görülən tədbirlər, düzgün peyvəndləmə və nəzarət sistemi ilə bu xəstəliyin qarşısını almaq mümkündür. Həm fermerlər, həm də alıcılar diqqətli və məsuliyyətli davransalar, risklər minimuma enər və bazarda sabitlik bərpa olunar.

*Ayşən Vəli*

# “Reallıqlara önəm verilir”

## *Komitə sədri şərh etdi*



“Son bir ay ərzində keçirilən dörd mühüm beynəlxalq əhəmiyyətli tədbir və bu sammitlərdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin yüksək və hörmətli dövlət rəhbəri statusunda iştirakı, çıxışları, səsləndirdiyi bəyanatlar, təkliflər ölkəmizin, Prezidentimizin dünyada, beynəlxalq aləmdə böyük hörmətə, ehtirama layiq olduğunu göstərir”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri xüsusilə vurğulayıb ki, BMT Baş Assambleyasının 80 sessiyası, Türk Dövlətləri Təşkilatının Qələbə sammiti, Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclası, Yaxın Şərq Sülh sammiti dünyaya yeni reallıqlardan yanaşmanı ortaya qoymaqla cənab İlham Əliyevin dəfələrlə səsləndirdiyi yeni dövr, yeni yanaşmalar tələb edir fikrini bir daha təsdiqlədi.

”Yeni yanaşma əlbəttə sülhün, təhlükəsizliyin təmin edilməsi, dövlətlər arasında münasibətlərin yaxşılaşdırılması, əməkdaşlığın genişləndirilməsi, iqtisadiyyatın inkişafı, insanların xoşbəxt gələcəyinə imkanların yaradılmasıdır. Azərbaycan Prezidenti dövlət rəhbəri seçildiyi ilk gündən məhz bu amalları, əməlləri dəstəkləyib, fəaliyyətini bəşəri ideyaların həyata keçirilməsinə, dünyada, regionda sülhün, təhlükəsizliyin bərqərar edilməsinə yönəldib, səylərini ali məqsədlərə sərf etmişdir.

Sülhsevər, inkişaf edən dövlət imici, beynəlxalq aləmdə söz sahibinə çevrilməyimiz məhz bu fəaliyyətin, səylərin nəticəsində mümkün olmuşdur. Azərbaycan nəinki Cənubi Qafqazda lider kimi tanınmış, eləcə də dünyada nüfuz sahibinə çevrilmişdir. Son günlərdə keçirilən bu mühüm tədbirlərin mövzusu, amalı da məhz sülhə, təhlükəsizliyə, münaqişələrin aradan qaldırılmasına, dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə, toxunulmazlığına hörmət edilməsinə yönəldilmişdir. Çünki dünya dövlətləri arasında münasibətləri yaxşılaşdırmasan heç bir inkişafa, əməkdaşlığa nail olmaq mümkün deyildir. Azərbaycanın düşmən üzərində tarixi qələbəsi, sülh yolunda atılan inamlı addımlar, təhlükəsizlik, əminamanlıq uğrunda səsləndirilən bəyanatlar, ölkəmizdə bu istiqamətdə təşkil edilən yüksək səviyyəli tədbirlər, görüşlər, danışıqlar, imzalanan sənədlər məhz sülhü reallığa çevirmək, dövlətimizi şöhrətləndirmək, xalqımızı ucaltmaq üçündür. Həyata keçirilən tədbirlər dünyaya bir nümunədir və qiymətləndirildiyi üçün hər birimizi qürurlandırır”-deyə, Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Mirzoyan kimin sözünü danışır - Paşinyanın, yoxsa...?

## Mətləb Salahov: "Ararat Mirzoyanın Paşinyanın sülh ritorikasına qarşı çıxması, Azərbaycanla münasibətləri şərt altına alması olduqca qaranlıq məqamlardan xəbər verir"

“Ararat Mirzoyanın dayanmadan sülh prosesini çətinə salan açıqlamalarla çıxış etməsi artıq elə bir həddə çatıb ki, erməni mediası belə bunu müzakirəyə çıxarıb. Çünki baş nazir Nikol Paşinyanın sülh ritorikası ilə onun komandasının əsas üzvlərindən sayılan xarici işlər naziri Ararat Mirzoyanın real sülhü şübhə altına alan bəyanatları arasında böyük uçurum var. Bu proses isə Vaşinqtonda Donald Trampın qarşısında Ermənistan hökumətinin öz üzərinə götürdüyü mühüm öhdəlikləra daban-dabana ziddir.”

Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, rəsmi İrəvan neçə illərdir ki, Ermənistanın öz günahı ucbatından bölgədəki mühüm iqtisadi və infrastruktur layihələrdən kənarda qalmasının acı nəticələrini aradan qaldırmağa çalışsa da, faktiki olaraq bu məqsədə xidmət edən real addımlar atmır. M.Salahovun fikrincə, xüsusilə Azərbaycanla imzalanması planlaşdırılan Sülh Sazişi barədə rəsmi İrəvan diqqətçəkən işlərdən uzaq görünür: ”Xüsusilə Ararat Mirzoyanın son bəyanatları hazırkı Ermənistan hakimiyyətinin sülh üçün səmimi və etibarlı olmadığına şübhələri artırmaqdadır. Bir çoxları bunu N.Paşinyanın Ermənistanın daxili ictimai-siyasi auditoruyasında özünə xal qazanmaq addımı kimi izah edirlər. Lakin bu absurd məsələdir. Çünki məhz elə N.Paşinyanın özü müharibədən sonrakı ilk günlərindən başlayaraq Ermənistanın tamamilə dəyişdirilməsinin vacibliyini dilə gətirir, keçmiş hakimiyyətlərin bu ölkəni xarabazarlığa və tiran ölkəsinə çevirdiklərini, bölgədəki inteqrasiyalardan kənar qoyduqlarını elan edir. Üstəlik, bütün revanşistləri küncə sıxdığı və erməni keşişlərinə divan tutduğu bir vaxtda N.Paşinyanın A.Mirzoyanın bu sülhdənkənar ritorikasına nə ehtiyacı var? Bəlkə N.Paşinyan radikal revanşistlərin hədəfinə çevrilməmək üçün XİN rəhbərini Azərbaycan və sülh əleyhinə danışdırır? Amma bunlar qəti inanılası ciddi arqumentlər deyil.



Çünki 44 günlük müharibədəki acı məğlubiyyətdən sonra erməni cəmiyyəti N.Paşinyanı ona görə dəstəklədi ki, ünfunət iyi verən Ermənistanı dəyişdirmək istəyində idi. Ermənistanı dalanın dibindən qurtarmaq və bölgədəki inteqrasiya prosesinə qoşmaq üçünsə mütləq Azərbaycanla Sülh Sazişi imzalanmalıdır. Sülh Sazişi üçün isə beynəlxalq hüquqa zidd və Azərbaycana qarşı ərazi iddiaları ilə ”zəngin” olan hazırkı Ermənistan konstitusiyasının dəyişdirilməsi ilk şərtlərdən biridir. Bunu Ermənistanda ağlı başında olan istənilən şəxs əla bilir. Belə olan halda Ermənistan XİN rəhbərinin Konstitusiya dəyişikliyinə qarşı çıxması Paşinyanın sülh ritorikasının tam əksinə olaraq Azərbaycanla münasibətləri şərtlər altına alması olduqca qaranlıq məqamlardan xəbər verir”.

***Ayşən Vəli***



# “Caps Lock”u sıxın arada, Allah xətrinə!

**MƏTANƏT**

***Sosial mediada belə bir informasiya ilə rastlaşdım: 22 oktyabr - Ümumdünya Caps Lock Günü imiş. Bu xüsusi gün klaviaturada ”Caps Lock” düyməsini sıxmaqla böyük hərflərlə yazmağın əyləncəsini bölüşmək üçün təşkil edilir.***

Maraqlıdır, deyilmi? ”Caps Lock” düyməsini sıxılı tut, bütün mesajlar, yazılar böyük hərflərlə yazılsın, sənsə bunu paylaş və əylən... Maraqlıdır, ona görə ki, böyük hərflərlə yazmaq dünyada bir gün üçün nəzərdə tutulmuşsa və bu, əyləncəni ehtiva edirsə, müasir dövrümüzdə insanların sosial şəbəkələrdə bir-birinə yazdığı məktub və mesajlara diqqət çəkək, görək 365 günün bircə günü əyləncə axtarılır, yoxsa hər günü?..

Təəssüf ki, 364 gündə qarşılaşdıqlarımız əyləncə deyil və insanların məsuliyyətsizliyi, diqqətsizliyi, bəzən də savadsızlığı səbəbindən ortalığa çıxan bağışlanmaz səhvlərdir. Diqqət etmisinizsə, məktub və yazılarda durğu işarələrini yoxa çıxarıb insanlar. Yəni onlara artıq ehtiyac duymurlar.

Bəzi gənclərin düşüncəsinə əsasən cümlənin sonuna nöqtə qoymaq ”söhbəti bitir” deməkdir. Ona görə də onlar nöqtədən istifadə etmir ki, bunu dost və rəfiqələri və ya sevgililəri belə anlayar, inciyər, küsər. Məntiqə fikir verirsinizmi?

Çoxsaylı insanın sosial şəbəkə məktub və mesajlarında xüsusi isimlərin, xüsusilə də insan ad və soyadlarının kiçik hərflərlə yazıldığının şahidi olmamış deyilsiniz. Sual olunur, nə üçün belə yazırsınız? Mən bununla bağlı sual da vermişəm onlara. Cavab belə olub ki, sən də nəyə fikir verirsən ey... Məntiqə fikir verirsinizmi?

Müasir sosial şəbəkə yazılarında cümlə böyük hərflə başlamır, sonunda nöqtə qoyulmur. İnsan adlarını kiçik hərflə yazanlar var. Yaşadığı şəhəri, təhsil aldığı ali məktəbin adını, hətta öz adını kiçik hərflərlə yazanlar var. Yox, əsla, demirəm ki, onlar nəyin böyük hərflə yazıldığını bilmirlər. Bilirlər, inanıram ki, bilirlər. Lakin dilin qrammatik qaydalarına qarşı böyük bir saygısızlıq, məsuliyyətsizlik var bəzi insanlarda.

Burada əsas yük gənclərin üzərinə düşür. Çünki hər birimiz şahidik ki, belə nöqsanlar daha çox onların məktub və mesajlarında müşahidə olunur.

Qaldı böyük hərflərlə yazmağa. Yox, burada bütün yaş qruplarında olan insanlardan söhbət gedir. Onlar tək ”Caps Lock Günü” deyil, istədikləri hər zaman mətnləri böyük hərflərlə yazırlar. Bilmirəm, bu, onlara hansı hissi verir, lakin dəfələrlə şahidi olmuşam və çox da əsəbiləşmişəm. Bəlkə də böyük hərflərlə yazmaq psixoloji bir vəziyyətdir, deyərdim. Belə yazanlar bununla özlərini yüksək mərtəbədə hiss edir, savablı, əlçatmaz zənn edir, bu cür yazarkən rahat olur, hamının oxuyacağını düşünür və yaxud diqqət çəkməyi fikirləşərək yazırlar, bilmirəm, lakin böyük hərflərlə mətn yazanların sayı yetərli qədərdir.

Rastlaşdığım ”Caps Lock Günü” xeyli düşünməyimə və düşündükcə də acı-acı gülməyimə səbəb oldu. Niyə? Elə yuxarıda danışdıqlarıma görə. Dünya böyük hərflərlə yazmaqla bir günü əyləncə hesab etdiyi halda, müasir dövrdə aramızda onlarla belə insanın olduğu və onların hər gün böyük hərf şriftlərindən istifadəsi gülüş doğurmur, bəs nə edir?..

Xüsusi isimləri kiçik hərflərlə yazanları isə ”Caps Lock Günü” münasibətilə daha çox xatırladım. Və onlara üz tutaraq demək istədim ki, heç olmasa bu günün xətrinə ”Caps Lock” düyməsini aradabir sıxın və böyük hərflərdən istifadə edin. Axı xüsusi isimlərin böyük hərfərə ehtiyacı var. Həm də cümlənin əvvəlində, ortasında və axırında. Necə olur ki, bu üç yerdə bircə dəfə də yadınıza düşmür ki, ”Caps Lock” düyməsini sıxılı tutasınız...

Bütün bu mənalarda 22 oktyabr-Ümumdünya Caps Lock Gününü hər zaman böyük hərflərlə və hər zaman kiçik hərflərlə yazan insanların necə qarşılaması da çox maraqlıdır. Böyük yazanlar üçün bu, adi bir gün olar yəqin ki, çünki onlar hər gün böyük hərflərlə yazır. Kiçik hərflərlə yazanlar üçünsə əyləncə ola bilər. Onlar bu günün xətrinə böyük hərflərlə yazıb əylənə bilərlər. Bəs ilin 364 günü?

Nə üçün yalnız böyük hərflərlə yazmalıyıq? Nə üçün yalnız kiçik hərflərlə yazmalıyıq? Bəlkə bu barədə düşünək. Unutmayaq ki, belə yazanların hər biri nənə-babadır, ata-anadır və sabahın bu statusda olacaq insanlarıdır. Eyni zamanda cəmiyyəti hər hansı qurumda təmsil edəcək gənclərdir. Beləliklə, ətrafımızdakı uşaq, yeniyetmə və gənclərə necə nümunəyik, bu barədə düşünək.

Bir də ki, Allah xətrinə, bir də dünyanın ən zəngin, ən nümunəvi dili olan ana dilimizin xətrinə, bir qədər diqqətli və saygılı olaq. ”Caps Lock” düyməsini vacib olan anlarda hökmən sıxılı tutaq. Lazım olmayan anlarda barmağımızı ona tərəf uzatmayaq!

# Məişət zorakılığı: adi məişət hadisəsi, yoxsa insanlığın ...

***Qadına qarşı şiddət və qadın qətlləri hər bir ölkədə mövcuddur və səbəbləri təkcə iqtisadi-sosial vəziyyətlə bağlı deyil. Yüksək inkişaf etmiş ölkələrdə, sivil cəmiyyətlərdə də qadınlara qarşı zorakılıq halları müşahidə edilir və statistik ölçüləri Azərbaycanla müqayisədə daha böyük rəqəmləri əks etdirir.***

ABŞ, Almaniya, Niderland, Fransa və digər inkişaf etmiş ölkələrdə qadınlara qarşı baş verən zorakılıq hallarının statistikasına nəzərə salsaq, mənzərənin necə acınacaqlı və təhlükəli həddə olduğunu görə bilərik.

Məlumat üçün bildirək ki, Avropada ildə orta hesabla 3500 qadın qətlə yetirilir. Avropa İttifaqı (Aİ) regionunun inkişaf etmiş dövlətlərindən olan Fransa, İtaliya və Niderlanda müvafiq olaraq üç, dörd və səkkiz gündən bir qadınlar qətlə yetirilir.

Fransa Avropada qadınlara qarşı zorakılıq halları və qətllərin ən geniş yayıldığı dövlətlərdən biridir. Bu ölkədə il ərzində təxminən 100 qadın məişət zəminində həlak olur









Fransa Daxili İşlər Nazirliyinin məlumatına görə, ümumiyyətlə, 2025-ci ilin ötən beş ayı ərzində Fransada 2025-ci ilin əvvəlindən 59 qadının qəddarcasına qətlə yetirilməsi rəsmi olaraq təsdiqlənib. Onların arasında 1, 11 yaşlı uşaqlar, 13, 15 yaşlı yeniyetmələr, 18 və



20 yaşlı gənclər, habelə 87 yaşlı qocalara qədər müxtəlif vəhşiliklərin qurbanı olanlar da var

Almaniyada da qadınlara qarşı zorakılığın artması qeydə alınmaqdadır. Federal Kriminal Polis İdarəsinin hesabatına əsasən il ərzində 360 qadının kişilər tərəfindən, çox vaxt partnyor zorakılığı və ya ayrılıq zamanı qısqanclıq zəminində öldürüldüyü aşkar edilir. Keçmiş daxili işlər naziri Nensi Faeser bildirib ki, Almaniyada demək olar ki, hər gün qadın qətli ilə rastlaşılır. İtaliyada da qətl hadisələri tez-tez təkrar olunmaqdadır. Apreldə 48 saat ərzində tapılan İlaria Sula və Sara Kampanella adlı iki qız tələbənin qətli bütün İtaliyanı sarsıdan hadisə kimi qeydə alınıb. Bu ölkədə təkcə apreldə eyni motivlə qadın qətllərinin sayı 11-ə çatıb.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin məlumatlarına və BMT Dünya Əhali Prospektləri hesabatına əsasən, hər il təqribən 51 min qadın zorakılıq və təcavüzün qurbanı olaraq öldürülür. Həmin statistik təhlillərə və eləcə də digər mənbələrə əsasən, dünya ölkələrində qadınların qəsdən öldürülməsi cinayətlərinin sayına görə Azərbaycan aşağı göstəriciyə malik ölkələrdəndir. Qadın qətllərinin sayına görə, post-sovet ölkələri sırasında Rusiya (2046), Özbəkistan (179), Qazaxıstan (145) və Belarus (87) daha çox qətliamların qeydə alındığı ölkələr kimi xarakterizə olunur. Amerikada bu rəqəm 4359, Braziliyada 3887, Kanadada 205, Almaniyada 374, Fransada 248, Böyük Britaniyada 214, Polşada 122, İtaliyada 118, İspaniyada 111 təşkil edir. Avropa ölkələrinin digərlərində də orta say 60-80 qətl hadisəsi arasındadır. Azərbaycanda həmin say təxminən 65 olmaqla aşağı göstəriciləri olan ölkələrdən biri hesab edilir.

## Qadın zorakılığının qarşısı necə alınmalıdır?!

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Elgün Səfərov bildirib ki, ailədaxili zorakılıq və məişət zəminində baş verən zorakılıq aktları müasir cəmiyyətin sosial problemlərindən biridir.

O, qeyd edib ki, bu zorakılıq formaları əsasən psixoloji, fiziki və iqtisadi asılılıq yaratmaqla bağlı zorakılıq növləri kimi təzahür edir: "Dünyada olduğu kimi, Azərbaycanda da təəssüf ki, psixoloji zorakılıq halları daha geniş yayılmışdır. Belə hallar insanların mənəvi sağlamlığına, ailə münasibətlərinə və ümumilikdə cəmiyyətin sosial sabitliyinə ciddi təsir göstərir. Azərbaycan dövləti bu problemin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirir. Ailədaxili zorakılıqla mübarizə məqsədilə Dövlət Komitəsi, yerli icra hakimiyyətləri və digər aidiyyəti qurumlar arasında koordinasiyalı fəaliyyət sistemi qurulmuşdur. Hər bir qurum öz səlahiyyətləri çərçivəsində qurbanların müdafiəsi və zorakılığın qarşısının alınması üçün zəruri tədbirlər görür.



Məişət zorakılığına qarşı mübarizənin hüquqi bazası da zamanla təkmilləşdirilib. 2006-cı ildən etibarən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən bu sahədə qanunvericiliyin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. "Gender bərabərliyinin təminatı haqqında" və daha sonra "Məişət zorakılığının qarşısının alınması haqqında" qanunların qəbulu bu istiqamətdə əsaslı dönüş yaratmışdır. Qanunvericilik çərçivəsində mühafizə orderləri, sığınacaqların fəaliyyəti, qaynar xətlərin yaradılması, həmçinin zorakılıq halları ilə bağlı məlumat bazasının formalaşdırılması kimi tədbirlər həyata keçirilir. Dövlət Komitəsi və Daxili İşlər Nazirliyi tərəfindən qurbanların müdafiəsi, ilkin tibbi yardımın göstərilməsi və zorakılıq riskinin azaldılması istiqamətində birgə fəaliyyət mexanizmləri mövcuddur.

Azərbaycan Respublikası eyni zamanda Birləşmiş Millətlər Təşkilatının "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğvi haqqında" Konvensiyasına qoşulmuşdur. Hər dörd ildən bir təqdim olunan milli hesabatlarda zorakılıqla mübarizə tədbirləri, gender bərabərliyinin təminatı və ictimai şüurun artırılması istiqamətində görülən işlər əks olunur. Bütün bu tədbirlər göstərir ki, Azərbaycan dövləti ailədaxili zorakılığa qarşı kompleks və sistemli mübarizə aparır. Bununla yanaşı, qeyd edilməlidir ki, bu problem təkcə dövlət qurumlarının deyil, həm də bütün cəmiyyətin üzərinə düşən bir məsuliyyətdir. Hər bir vətəndaşın bu prosesdə maarifləndirici və sosial məsuliyyətli davranışı ailələrin rifahı və cəmiyyətin mənəvi sağlamlığı üçün mühüm əhəmiyyət daşıyır".

Psixoloq Gülər Məmmədovanın sözlərinə görə isə zorakılıq anlayışı insan cəmiyyətinin formalaşdığı ilk dövrlərdən bəri mövcuddur.

Psixoloq bildirib ki, tarix boyu baş verən sosial və mədəni dəyişikliklərə baxmayaraq, xüsusilə qadınlara qarşı zorakılıq formaları bu gün də aktual sosial problem kimi qalmaqdadır: "Müasir dövrdə zorakılığın əsas səbəblərindən biri qadınların savad və maarif səviyyəsinin yetərincə olmamasıdır. Özünü intellektual və mənəvi cəhətdən inkişaf etdirməyən qadın, çox zaman fiziki və psixoloji zorakılığın qurbanına çevrilir.

Qadınların təhsil imkanlarından məhrum edilməsi, erkən yaşda ailə həyatına daxil olmaları və müstəqil şəxsiyyət kimi formalaşmamaları, həm fərdi, həm də ictimai planda mənfi nəticələr doğurur. Bəzi bölgələrdə hələ də qız uşaqlarının orta məktəbi tamamlamasına və ali təhsil almasına məhdudiyyətlərin qoyulması bu problemin dərin köklərindən xəbər verir. Halbuki, qızların təhsil alması və elmə yönəlməsi, yalnız fərdi inkişaf baxımından deyil, həm də gələcək nəsillərin sağlam, mədəni və düşüncəli böyüməsinə böyük töhfə verir.

Təhsilli qadın özünə inamlı, müstəqil qərar vermə bacarığına malik olur və ailə qurarkən daha sağlam seçimlər edir. Belə qadınlar mənəvi və əxlaqi dəyərlərə sadiq olur, cəmiyyətdə müsbət davranış modelləri formalaşdırır. Qadına lazımi dəyərin verilmədiyi ailələrdə isə qadınların şəxsiyyətinin zəifləməsi, özünə inamsızlıq və mənəvi boşluq müşahidə edilir ki, bu da nəticə etibarilə ailənin və cəmiyyətin bütövlükdə natamam inkişafına gətirib çıxarır.

Unutmaq olmaz ki, qadın və kişi ittifaqı yalnız bioloji deyil, sosial və mənəvi tərəfdaşlıq münasibətidir. Ailənin sağlamlığı birbaşa tərəflərin psixoloji sabitliyi ilə əlaqəlidir. Özünü müdafiə etməyi bacarmayan, şəxsiyyət kimi formalaşmamış insanlar nə öz ailəsini, nə də cəmiyyətini qorumağa qadir olur. Cəmiyyətdə zorakılığın qarşısını almaq üçün ən əsas vasitə təhsildir. Elm və maarif səviyyəsi yüksək olan insan emosiyalarını idarə etməyi, dialoq yolu ilə problemi həll etməyi bacarır. Təəssüf ki, təfəkkür potensialı zəif, intellektual inkişafı məhdud olan fərdlər çox zaman impulsiv davranışlar sərgiləyərək zorakılığa meylli olurlar. Beləliklə, qadınların təhsilə çıxış imkanlarının artırılması, onların müstəqil və savadlı fərdlər kimi formalaşması cəmiyyətin sosial rifahının və mənəvi təhlükəsizliyinin təminatıdır. Zorakılıqla mübarizənin ən təsirli yolu maarifləndirmə, təhsil və bərabər imkanların yaradılmasıdır".

***Günay Hacıyeva***

# Niyə real həyatda susub, sosial şəbəkədə danışırıq?

*EKSPERT RƏYLƏRİ*



Müasir dövrdə insanlar arasında ünsiyyət formaları köklü dəyişikliklərə məruz qalıb. Real həyatda bir-biri ilə açıq və səmimi dialoq qurmaqdan çəkinən bir çox insan sosial şəbəkələrdə öz fikirlərini cəsarətlə, bəzən isə emosional və sərt şəkildə ifadə edir. ”Profil arxasında gizlənən cəsarət” adlandırıla biləcək bu hal, fərdlərin sosial mühitdəki davranışları ilə virtual aləmdəki davranışları arasında ziddiyyət yaradır. Reallıqda birbaşa münasibət qurmaqdan qaçan insan niyə ekran qarşısında daha açıq danışmağa meyllidir? Bu paradoksun kökündə psixoloji amillərlə yanaşı, sosial təsirlər və texnologiyanın formalaşdırdığı yeni ünsiyyət mədəniyyəti dayanır. Bəs insanların real həyatda çəkindiyi dialoqları sosial mediada bu qədər rahat şəkildə aparmalarının səbəbi nədir? SİA mövzu ilə bağlı sosioloq Mətanət Məmmədova və psixoloq Səbinə Bəşirzadənin fikirlərini öyrənib.

Sosioloq Mətanət Məmmədova bildirib ki, insan artıq iki həyat yaşamalı olur: ”bir real həyat, bir də virtual həyat”. Bugünkü real həyatla virtual həyat arasında çox fərqlər yaranıb deyə sosioloq qeyd edir: ”Onlardan biri də dialoq qurmaq, söhbət etmək mədəniyyətidir. Əvvəllər insanlar yalnız real həyatda dialoq qururdular; istədikləri an qururdular, istədikləri an isə qurmurdular. Kimlə söhbətlər alınırdısa, onunla qururdular və yaxud da iş tələbi, fəaliyyət və ya digər səbəblərlə real



həyatda dialoqlar qururdular. Bu isə böyük məsuliyyət tələb edirdi, çünki insan öz biliş səviyyəsini, dünya görüşünü ortaya qoyurdu.

Lakin bu gün virtual aləmdə məsuliyyət bir qədər azalır. İnsanlar sosial şəbəkələrdə daha sərbəst şəkildə dialoq qura bilirlər. Bu dialoqlara isə tam dialoq demək olmaz. Termin olaraq dialoq iki şəxsin bir-biri ilə söhbət eləməsi deməkdir. Sosial şəbəkələrdə isə söhbət bir o qədər ətraflı olmur; sadəcə münasibət bildirilir, cavab yarımçıq gəlir. Cavabı tam şəkildə verə bilərsən və istədiyin zaman söhbəti dayandıra bilərsən. Real həyatda isə belə deyil. Sənə verilən sualı cavablandırmalı, məsuliyyətlə davranmalı, verilən sualı tam doğru şəkildə əkiz etməlisən. Virtual aləmdə isə bu məsuliyyət yoxdur. Bəli, orada da alimlər, müəllimlər, ziyalı təbəqə öz dialoqunu aparır. Lakin sosial şəbəkələrdə ümumi insanlar arasında dialoq çox vaxt məsuliyyətsiz və yarımçıq olur. Bu aspektdən yanaşdıqda, ziyalı insanlar və iş fəaliyyəti ilə məşğul olan şəxslər real həyatda olduğu kimi virtual həyatda da dialoq qura bilir. Lakin sosial şəbəkələrdəki dialoq əsasən boş vaxtını keçirən insanlara, xüsusilə gənclərə aiddir. İnsanlar videoya, şəklə, yazıya münasibət bildirərkən məsuliyyət hiss etmirlər, özlərini təhlükəsiz hiss edirlər.

Real həyatda hadisələrə münasibət bildirmək çətin olur. Məsələn, parkda bir insanın qeyri-normal hərəkətini müşahidə etsək, hər kəs onunla dialoq qurmaq istəmir. Çünki təhlükə yarana bilər, nəticəsi məlum deyil. Sosial şəbəkədə isə belə deyil: sən heç kəsi görmürsən, təhlükə yoxdur, sərbəst şəkildə münasibət bildirə bilirsən. İnsanlar virtual həyatda məsuliyyətsiz şəkildə dialoq qururlar, özlərini sərbəst və təhlükəsiz hiss edirlər. Bu da onları real həyatda ünsiyyətdən uzaqlaşdırır. Həyatın çox hissəsi virtual aləmə keçib, insanlar real dialoqlardan uzaqlaşırlar. Bu, həm ailə içi münasibətlərə, həm də qohum əlaqələrinə təsir edir. Artıq hər bir evdə hər kəsin öz virtual dünyası var; ata, ana, oğul, qız öz telefonuna baxır, real söhbət qurulmur. Bu vəziyyət uşaqlar və gənclər üçün də nümunə olur. Onlar valideynləri kimi virtual həyata meyillənirlər. Odur ki, biz, orta yaşlı və yaşlı insanlar, real həyatda daha çox ünsiyyət yaratmalı, dialoqlara üstünlük verməliyik. Əks halda gələcək nəsil real həyatla əlaqəsini itirəcək.

Real həyatda ünsiyyətin üstünlükləri çoxdur: emosiyalar, münasibətlər, toxunuşlar, salamlaşmaq və digər sosial davranışlar. Bunlar insanlara Allah tərəfindən verilmiş, insanlığın yaşamasına xidmət edən xüsusiyyətlərdir. Virtual aləmdə isə bunların çoxu itir, insanlar yalnız ekran vasitəsilə əlaqə qurur. Buna görə də həyatımızın çox hissəsini virtual aləmə keçirməməliyik. Real həyatda daha çox dialoq qurmalı, hadisələrə münasibət bildirməliyik. İnsanlar sosial şəbəkələrdə sərbəst ola bilərlər, amma real həyatda ünsiyyətin yerini heç nə əvəz edə bilməz.

Psixoloq Səbinə Bəşirzadə açıqlamasında insanların öz hisslərini, ehtiyaclarını, doğru düşüncələrini, ürəyindən keçirdiklərini, fikirlərini - hətta təxəyyüllərini belə ifadə etməkdən qorxması çox dərin psixoloji köklərə dayandığını deyir: ”Əgər bunu uşaqlıqdan götürsək, ”Danışmaq gümüşdürsə, susmaq qızıldır” kimi atalar sözlərindən, yaxud ”Uşaq yaşından sənə ayıbdır, bunu demə”, ”Sakit ol, böyük danışır” kimi nəsihətlərdən başlayır. Bunlar uşağın beynində müəyyən bir metod və anlayış formalaşdırır - o düşünür ki, özünü müdafiə etmək və qorumaq üçün danışmamalıdır. Əgər sakit qalsa, deməli, təhlükəsiz yerdə olacaq. Uşaqda belə bir mexanizm yaranır: ”Danışmaq təhlükəlidir. Danışsam, məni danlayacaqlar, güləcəklər, ya da ciddiyə almayacaqlar”.

Beləliklə, uşaqda bir daxili sükut formalaşır. O, öz iç səsini susdurur, özünə bir sərhəd çəkir ki, ”Danışmayım, çünki danışsam, məni dinləməyəcəklər.” Uşaqlıqda yaranan bu düşüncə, böyüdükcə, insanın emosional ifadə ehtiyacını boğur. Halbuki insanın ən dərin emosional ehtiyacı - danışmaq, bölüşmək, qəbul olunmaq və sevilməkdir. Lakin insan böyüdükcə bu ehtiyac ”yanlış başa düşülmək qorxusu”na çevrilir. ”Əgər mən həqiqəti desəm, məni səhv anlayacaqlar” düşüncəsi yaranır. Nəticədə, insan öz hisslərini və fikirlərini ifadə etməkdən çəkinir. İçində bir səssizlik, bir sükut yaranır. Fikirləşir ki, ”Əgər düşündüklərimi desəm, məni işdə kiçik görəcəklər, evdə yanlış anlayacaqlar.”



Bu cür qorxular, insanın içində düyünlənmiş sözlər yaradır. Psixoloji olaraq bu, ”boğaz çakrası”nda bloklanmaya səbəb olur. Hətta bir çox fiziki xəstəliklərin - məsələn, zob və ya boğazda yaranan qıcıqlanmaların - arxasında məhz bu bastırılmış emosiyalar dayanır. İnsan danışmaq istəyir, amma qorxur. Buna görə də bir çox insanlar sosial şəbəkələrdə özlərini ifadə etməyə başlayır. Real həyatda deyə bilmədiklərini anonim profillərlə rahatlıqla yazırlar. Bu, bir növ emosional maskadır. İnsan real həyatda sakitdir, amma içində toplanan duyğuları sosial mediada boşaldır. Belələrinə ”monitor arxası aslanlar” deyirlər - ekranda cəsur görünürlər, amma real həyatda susurlar.

Bu hal qadınlar və kişilər arasında fərqlidir. Kişilərin çox danışması adətən ”anaya bağlılıq”la, qadınların çox danışması isə ”emosionallıqla” izah olunur. Amma sosial səbəblər baxımından cəmiyyət açıq danışan insanları qəbul etmir. Onlar kənara itələnir, ”bu insanla danışma”, ”bununla dost olma” kimi münasibətlərlə qarşılaşırlar. Halbuki bu insanlar sadəcə doğruları deməyə çalışır. Digər tərəfdən, bəzi insanlar açıq danışanları ”təhlükə” kimi görürlər. Sanki o adamın əlində silah var və hər an bu silah onlara qarşı çevrilə bilər. Buna görə də çoxları iltifat eşitməyi, tənqiddən uzaq qalmağı üstün tutur.

Beləliklə, insanlar bir-birindən uzaqlaşır, aralarına emosional məsafə qoyurlar. Bəzən insan özünə belə etiraf edə bilmir: ”Mən bunu deyə bilərəmmi? Düz başa düşülərəmmi? Mənə qarşı münasibət dəyişərmi?” Bu düşüncələr insanın içində ziddiyyət yaradır, danışmaq istəyi ilə qorxu arasında bir mübarizə baş verir. Əslində, insan danışdıqca azad olur. Danışmaq insanı şəfa tapmağa, daxili rahatlığa aparır. Özünü ifadə etmək bacarığı isə sosial və emosional inkişafın əsas göstəricisidir. Nə qədər çox danışırıqsa, bir o qədər azad oluruq. Nə qədər susuruqsa, bir o qədər içimizdə yük toplanır”.

***Günel Fərzəliyeva***

# Ömrün altmışıncı ZİRVƏSİ

***Müəllim - ən müqəddəs və ən şərəfli addır. Müəllimlik sənətini ucaldan isə müəllim peşəsini ləyaqətlə daşıyan, hər bir şagirdinə sözün əsl mənasında ata-ana olan böyük MÜƏLLİMLƏRİMİZDİR.***

İnsanla həmyaşdır, ölməz, yorulmaz,
Bizimlə yol gedir müəllim ömrü.
Hamıya pay verib ömründən bir az,
Məndəndir, səndəndir müəllim ömrü.



Müəllimlik bütün peşələrin şahıdır. Müəllim yeni insan nəsli yetişdirən, bütöv bir xalqın gələcəyini bünövrədən ucaldan insan mühəndisidir. Çünki hər bir kəsi - alimi də, həkimi də, fəhləni də yetişdirən, ləyaqətli vətəndaş kimi cəmiyyətə təqdim edən məhz müəllimdir. ”Müəllim yeganə sənətkardır ki, əsərinin üzərində adı yazılmır” deyirdi Mustafa Kamal Atatürk.

İstanbulu fəth edən Fateh Sultan Mehmet, şəhərə girəndə ona uzadılan güllərin özünə deyil, müəlliminə aid olduğunu ucadan deyirdi. ”Mən İstanbulu fəth etdiyimə deyil, məni fateh olaraq yetişdirən müəllimim Ağşəmsəddinlə eyni zamanda yaşadığıma sevinirəm”.

Onun 60 illik yubileyinin tamam olduğunu eşidəndə, istər-istəməz yaddaşım lap uzaqlara, ötən əsrin səksəninci illərinə, gözəl və unudulmaz məktəb illərinə apardı məni. 1986-ci ildə o zamankı Dəvəçi rayonunun 2 saylı orta məktəbində ( indiki Şabran şəhər R.Yusifov adına 2 saylı tam orta məktəb -lisey) ikinci sinifdə təhsil alarkən ibtidai sinif müəllimimiz Ruhulla müəllim rəhmətə getmişdi. Rəhmətlik Ruhulla müəllim olduqca tələbkar, şagird intizamına son dərəcə diqqət göstərən müəllim idi.

Nə gizlədim, o zaman biz şagirdlər daha azad, yaradıcı sinif mühitinə həsrət idik. Qorxu əvəzinə daha çox sevgiyə ehtiyacımız vardı. Yaxşı yadımdadır, bir gün gənc, gülərüz bir müəllimə gəldi sinifimizə. Dedilər yeni müəllimimizdir, bundan sonra bizə dərs deyəcək. Daha çox şagirdlərə müəllim sevgisi ilə yanaşan, uşaqlara kitabı sevdirən Elnarə müəllimə idi yeni müəllimimiz -Elnarə Mahmudova...

Hər bir insanın hafizəsinə ibtidai sinif müəllimi əbədi həkk olur sən demə. O zamandan az qala qırx ilə yaxın vaxt keçib, amma Elnarə müəllimə yaddaşımda həmişəlik həkk olub desəm qəti səhv etmərəm.

QISA ARAYIŞ: Mahmudova Elnarə Əhəd qızı 1965-ci il oktyabrın 20-də Astara rayonun Təngərüd kəndində anadan olub. Həmin kənddə orta təhsilini başa vurduqdan sonar 1982-ci ildə Lənkəran Pedaqoji Kollecinə daxil olub. 1985-ci ildə Şabran şəhər R.Yusifov adına 2 saylı tam orta məktəb -liseydə pedaqoji fəaliyyətə başlayıb. Pedoqoji fəaliyyətdə olduğu bu 40 il ərzində çoxlu sayda həkimlərin, müəllimlər və mühəndislərin, ən əsası da ləyaqəti gənclərin yetişdirilməsi üçün əlindən gələni əsirgəməyib.

Bu dəyərli, gözəl müəllimimin 60 illik yubileyi tamam oldu. Bu gün Elnarə müəllimə yorulmadan yenə öz gözəl peşəsinə sadiqdir. Şabran şəhərindəki 2 saylı tam orta məktəb - liseydə yenə də gələcəyin dəyərli vətəndaşlarını, qəhrəman oğullarını, ziyalılarını yetişdirməklə məşğuldur. Sizi çox sevirik əziz Elnarə müəllimə, yetmiş, səksən, doxsan illik yubileylərdə görüşənədək!

***Mətləb Salahov***

# Sıfır tullantı problemi: gələcək gəlməyəcək!

***Sıfır tullantı, resurs və tullantıların idarə edilməsi barədə yanaşmadır. Bu yanaşma plastiklərin davamlı istehsal və istehlak vərdişlərini dəyişməyə təşviq edir və resurslardan səmərəli istifadəni dəstəkləyir. Sıfır tullantı anlayışı, tullantıların çoxluğunun qarşısını almağın, istehlakının azaldılmasının, təkrar istifadəsinin və təkrar emalının tərəfdarıdır. Beləliklə, bu yanaşma, sosial həmrəylik göstərməklə müsbət sosial-iqtisadi nəticələrə nail olmağa kömək edə bilər.***



Təkrar emal edilə bilən iqtisadiyyat məhsulları, komponentləri və materiallarını mümkün qədər uzun müddət istifadədə saxlamaqla tullantıları və çirklənməni aradan qaldırmağı hədəfləyən iqtisadi sistemdir. Buna "dairəvi iqtisadiyyat" deyilir, biz bu prosesi "təkrar emal" kimi də tanıyırıq.

Dairəvi iqtisadiyyat üç prinsipə əsaslanır: istehlakı azaldın, təkrar istifadə edin və



təkrar emal edin. Bu prinsip ilk növbədə materialların və resursların istifadəsini minimuma endirməklə istehsal olunan tullantıların miqdarını azaltmağı hədəfləyir. Tullantılar qaçılmaz olduqda, mümkün olduqda təkrar istifadə edilməli və ya təkrar emal edilməlidir.

Bu prinsip, məhsulların və materialların mümkün qədər uzun müddət istifadə oluna bilməsi üçün istehsal etməyi hədəfləyir. Bu prosesdə istehsal olunan məhsullar daha davamlı, təmir edilə bilən və təkmilləşdirilə bilən olmalıdır. Bu yolla məhsul iqtisadiyyatda mümkün qədər uzun müddət istifadədə qalacaq, həm təbiətə tullantı kimi atılmayacaq, həm də istehlakçının büdcəsinə faydalı olacaq.

Bu təşəbbüs tullantıların və çirklənmənin azaldılması istiqamətində əhəmiyyətli olacaq. Təkrar emal sənayesi inkişaf etdikcə tullantıların və çirklənmənin miqdarını azaltmağa kömək edə bilər. Bunun səbəbi, məhsulların, komponentlərin və materialların mümkün qədər uzun müddətə istifadədə saxlanması, dolayısı ilə yeni məhsulların istehsalı ehtiyacını azaltmaqdır. Lakin hər planı istehlak faizini yüksəltmək istiqamətində quran bazar iqtisadiyyatı buna imkan verəcəkmi, bu sual altındadır.

## Təkrar emal et, qənaət et

Təkrar emal prosesinin inkişafı təkmilləşdirilmiş resurs səmərəliliyini yaxşılaşdırmağa kömək edə bilər. Bunun səbəbi, ilk növbədə materialların və resursların istifadəsini minimuma endirmək və tullantı materialların təkrar istifadəsini və təkrar emalını maksimum dərəcədə artırmaqdır. Dairəvi iqtisadiyyat, davamlı iqtisadi artımı dəstəkləməyə kömək edə bilər. Yəni tullantıların utilizasiyası xərclərini azaltmağa və təkrar emal və təkrar istifadə sənayesində yeni iş yerlərinin yaradılmasına kömək edə bilər.

Təkrar emal tullantı materiallarının yeni materiallara və məhsullara çevrilməsi prosesidir. Təkrar emal zibilxanalara göndərilən tullantıların miqdarını azaltmağa kömək edə bilər və həmçinin təbii ehtiyatları, dünyanı tullantı istilasından qoruya bilər. Həmçinin təkrar emal müessisələrinin açılması yeni iş yerlərinin yaradılması və daha çox adamın işlə təmin olunması deməkdir.



Qırılan və ya zədələnmiş məhsulların təmiri prosesi də bu proseslər zəncirinin bir halqasıdır. Təmir, məhsulların xidmət müddətini uzatmağa və həmçinin pula qənaət etməyə kömək edə bilər. Lakin bu halda original ehtiyyat hissələrinə ehtiyac yaranır ki, bunu tədarük etmək də başqa bir mübahisəli məsələdir.

Dairəvi iqtisadiyyat fikri, iqtisadiyyatın perspektivli inkişaf istiqamətidir. O, tullantıları və çirklənməni azaltmaq, resursların səmərəliliyini artırmaq və davamlı iqtisadi artımı təşviq etmək potensialına malikdir. Biz daha dayanıqlı, təminatlı və təhlükəsiz gələcəyə doğru irəlilədikcə, dairəvi iqtisadiyyat daha mühüm rol oynayacaq.

## Nəyi təkrar istehsal etmək olar?

Kağızın təkrar emal edilməsi mühüm əhəmiyyət kəsb edir, çünki o, istifadə olunan xammalın miqdarına xeyli qənaət edir və yüksək iqtisadi dəyərə malikdir. Həmçinin təbiəti, ağacları, meşələri mühafizə etmək üçün kağızın təkrar emalı vacibdir.

Ağaclardan alınan taxta materiallar məişət əşyaları, daşınma və mühafizə üçün qablaşdırma, tikinti materialları kimi həyatın bütün sahələrində geniş istifadə olunur. Evlərimizi bəzəyən mebellərin modeli köhnələndə, zədələnəndə təkrar emala verməklə də təbiəti mühafizə edə bilərik.

Plastik bir çox istehlak məhsullarının tərkib hissəsidir və istehsal sənayesinin məhsullarının və hazır məhsulların çox hissəsini təşkil edir. Bununla belə, bütün plastiklər eyni deyil, bu da onların hamısını eyni şəkildə atmaq və təkrar emal etmək mümkün deyil. Buna görə də plastik tullantıların çeşidlənməsi də vacibdir.

Dünyada plastik istehsalının çox hissəsi Asiya ölkələrində həyata keçirilir. Lakin onların əksəriyyəti aşağı keyfiyyətli plastik məhsullardan ibarətdir. Çin dünyanın ən böyük plastik istehsalçısı kimi birinci yerdədir. Avropa ölkələri Çindən sonra sıralanır. Bir çox ölkədə ətraf mühitə vurduğu ziyana görə plastik torbaların istifadəsini azaltmaq üçün araşdırmalara başlanılıb. Bəzi ölkələrdə bunun üçün müxtəlif qadağalar tətbiq edilib. ABŞ və Avropadan başqa, Meksika və Hindistan kimi bəzi inkişaf etməkdə olan ölkələr də plastik torbalardan istifadəni qadağan edib.

## Plastiklərin hamısı təkrar emala yaramır

Məlumdur ki, plastik torbalar təbiətə atıldıqdan təxminən 1000 il sonra əriyir. Eynilə, plastik boşqabların təbiətdə yox olması üçün 500 il, plastik şüşələrin yox olması üçün 400 il lazımdır. Bundan əlavə, təbiətdəki plastik tullantılar neft əsaslı olduğu üçün karbon qazı emissiyalarına təsir edərək qlobal istiləşməni sürətləndirir.

Hal-hazırda davamlı-davamsız, sərtyumşaq, birdəfəlik-təkrar istifadə edilə bilən plastiklərin müxtəlif növləri var. Plastiklərin təxminən 50 faizi birdəfəlik istifadə üçün istehsal olunur. Təkrar emal üçün toplanan plastiklərin yalnız 8-9 faizi təkrar emala göndərilə bilər. Ümumiyyətlə, plastikin təkrar emal qabiliyyəti məhduddur. Bildiyiniz kimi, plastikin xammalı neft və neft məhsullarıdır. Plastik istehsalında ağır metallar və potensial zərərli əlavələr də istifadə olunur.



Plastikin insan sağlamlığına mənfi təsirləri isə danılmazdır. Aparılan araşdırmalar doğum zamanı amniotik kisədə və körpənin bədənində mikroplastiklər aşkar edildiyini aşkarlayır. Çünki mikroplastiklər yediyimiz və içdiyimiz hər şeyə qarışaraq sağlamlığımıza təsir göstərir. Mütəxəssislər plastikin mənfi təsirlərinə uzun müddət məruz qalmanın bəzi xərçəng növlərini, xüsusən də döş və prostat vəzi xərçənginə təkan verdiyini deyir. Hər il təxminən 5 trilyon plastik torba istehsal olunur. Hər il təxminən 1 milyard quş və məməli heyvan isə plastik tullantıları yediyi üçün ölür. Dənizdə yaşayan balıqların demək olar ki, yarısının mədələrində mikroplastik hissəciklər var.

Plastik torbaların istifadəsini məhdudlaşdırmaq mübarizədə birinci addımdır. Alış-veriş edərkən parça çantadan istifadə edə bilərik. Bazardan aldığımız tərəvəz və meyvələri torbaya deyil, kağız torbaya qoya bilərik. Həmçinin soyuducuda bir kağız torbada saxlaya bilərik. Plastik torbalar təkrar emal edilməlidir. Plastik saxlama qabları, boşqablar və fincanlar yerinə şüşə, keramika və ya metal məhsullardan istifadə edə bilərik. Plastik butulkalar yerinə şüşə və ya metal butulkalara üstünlük verə bilərik. Fərdi qulluq məhsullarında sintetik tekstil məhsulları yerinə plastiksiz məhsullar və təbii pambıq, kətan seçə bilərik. Əgər tullantıların təkrar emalı çoxalmasa sağlam bir gələcək barədə ümid etməyək. Sağlam gələcəyə gedən yol təbiətin mühavizəsindən, təbii resursların qorunmasından və ağıllı istifadəsindən keçir. Təmənnamız daha yaşıl, sıfır tullantılı bir gələcəkdir. Amma, o gələcək gələcəkmi? Bax, bu, sual altındadır.

***Lalə Mehralı***

# Yüksək etimada və xeyirxahlığa qarşı naqislik edənlər






"Yazıçı və dramaturq, "Hərb və Sülh", "Anna Karenina" kimi dünya ədəbiyyatının incilərindən sayılan əsərlərin müəllifi Lev Tolostoy deyirdi ki, "Bəzi insanlara hər gün yaxşılıq elə, səndə, sənə nankorluq edəcəklər". Haqlı və əsaslı aforizmdir. Həqiqətən də həyatda elə insanlar var ki, hər gün yaxşılıq et, qulluğunda dayan faydası olmayacaq, bir gün ani diqqətsizlik göstərsən düşməninə çevriləcək, sənə pisliklər etməyə, yamanlıqlar göstərməyə çalışacaq. Bu cür insanlar hər bir cəmiyyət üçün təhlükə mənbəyidir. Onlar istənilən vaxt dövlətinə və xalqına xəyanət edə bilər. Elə götürək dövlətə xəyanət, hakimiyyəti zorla ələ keçirməyə yönələn hərəkətlər və çirkli pulların yuyulması kimi xüsusilə ağır cinayətlərdə ittiham olunan Prezident Administrasiyasının keçmiş rəhbər Ramiz Mehdiyevi və onun qrupunun üzvlərini. Bir müddət əvvələ qədər onlar yüksək etimadın nəticəsi olaraq müxtəlif vəzifələr daşıyırdılar, siyasi hakimiyyətdə təmsil olunurdular. Elə ki hörmət-izzətlə vəzifədən yola salındılar, dönüb oldular əfi ilan. Nəticədə Ramiz Mehdiyev və dəstəsinin üzvləri olan sabiq baş nazir Novruz Məmmədov, Qaçqınlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Əli Həsənov, Prezidentin sabiq köməkçisi Əli Həsənov, Bakının sabiq meri Hacıbala Abutalıbov, Azərbaycan Prezidentinin keçmiş Mətbuat katibi Azər Qasımov, keçmiş Baş Qərargah rəisi, general Nəcməddin Sadıqov, XİN rəhbəri Elmar Məmmədyarov, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və keçmiş nəqliyyat naziri Ziya Məmmədov dövlətə və siyasi irsinə qarşı xəyanət yolu tutdular.

Dünyada baş verən siyasi, ictimai hadisələrə əsasən demək olar ki, hakimiyyətdə təmsil olunmuş və ya hakimiyyətdə vəzifə kreslosunda olan şəxslər arasında öz məfkurəsinə və əqidəsinə xəyanət edə biləcək kəslərin sayı azdır. Dəhşətlisi ondan ibarətdir ki, o azlığın arasında Azərbaycanda müxtəlif yüksək vəzifə tutmuş şəxslərin adları var. Suallar yaranır ki, dövlət çevrilişi etməyə cəhd göstərməyə və digər cinayətlərin törədilməsinə ortaq olmağa onları nə vadar etdi? Nədən onlar xalqa düşmən kəsilmək, böyük zəhmət, əmək hesabına təmin edilən ictimai-siyasi sabitliyi pozmağı planlaşdırdılar? Şübhə edilmir ki, Ramiz Mehdiyev və dəstəsi vəzifə kreslosunda olduqları zaman bir sıra təxribatlara rəvac veriblər və ya dövlətin sütunlarına zərbə vurmaq üçün xarici və daxili qüvvələrlə işbirliyində olublar.

## R.Mehdiyev Rusiyanın adamı olduğunu gizlətməyib

Mətbuatda yazılanlara və apardığımız araşdırmalarla təsdiq olunur ki, Ramiz Mehdiyev və dəstəsi Rusiyanın xüsusi xidmət orqanları ilə geniş əməkdaşlıq əlaqələrinə malik olublar. Siyasi və ekspert çevrələri uzun illər R. Mehdiyevi Rusiyanın Bakıda qurduğu "beşinci kolon"un rəhbəri kimi qiymətləndirirlər. O da qeyd olunur ki, R.Mehdiyev və ətrafında olan dəstə üzvləri Rusiyanın Azərbaycandakı maraqlarını qoruyub. Hələ 2019-cu ildə də Ramiz Mehdiyevin yanında keçirilən qapalı müşavirədə hakimiyyətin ələ keçirilməsi müzakirə olunub. Bu yığıncaqda sabiq baş nazir Novruz Məmmədov, Qaçqınlarla İş üzrə Dövlət Komitəsinin sabiq sədri Əli Həsənov, Prezidentin sabiq köməkçisi Əli Həsənov, Bakının sabiq meri Hacıbala Abutalıbov və digərləri iştirak edib. R.Mehdiyevin sətiraltı ifadələrlə Rusiyanın onların planlarının gerçəkləşməsinə dəstək verəcəyinə eyham vurub. Bununla da R.Mehdiyev Rusiyanın adamı olduğunu gizlətməyib. Nəzərə almaq lazımdır ki, R.Mehdiyev Prezident Administrasiyada və AMEA-dakı vəzifəsindən uzaqlaşdırılsa da, Rusiyaya xidmətlərini davam etdirmişdir. 2022-ci il fevralın 22-də AMEA-nın Ümumi Yığıncağında istefası qəbul edilən Ramiz Mehdiyevin martın 17-də Akademiyada olduğu haqqında məlumat yayıldı. AMEA-dan verilən açıqlamada onun binaya şəxsi əşyalarını götürmək üçün gəldiyi bildirilmişdi. Ancaq sonra məlum oldu ki, Ramiz Mehdiyev Akademiyada, məhz Akademiya Prezidentinin otağında Rusiyadan gələn nümayəndələrlə - Rusiya Elmlər Akademiyasının prezidentinin köməkçisi ilə görüş keçirib. Sual yaranır sən kim oldun, hansı statusla Rusiya nümayənləri ilə görüş keçirirsən? Ramiz Mehdiyevin son illərdə də şimal küləyi ilə nəfəs aldığı məlum idi. Ümumiyyətlə, Moskvanın agentura şəbəkəsinin üzvlərinin müxtəlif vaxtlarda fəallaşmaları Azərbaycan üçün təzə xəbər deyil.

Mehdiyev Azərbaycan və Rusiya arasındakı son siyasi gərginlikdən istifadə edərək, yenə də öz xidmətlərini təklif edib. Məlumatlara görə, o özünün rəhbərliyi ilə dövlət hakimiyyətini zorla ələ keçirmək planına dəstək istəyib. Hətta "reallaşdıracağı" çevrilişdən sonrakı planları barədə də məlumat verib. Plan Dövlət Şurası (yenə Şura!) adlı keçid hökuməti qurmaq, Şuraya da Mehdiyevin rəhbərlik etməsi ilə bağlı olub.

Amma Ramiz Mehdiyevi güvəndiyi, dövlətinə xəyanət etmək üçün kömək istədiyi tərəf də qurtarmadı. Bəzi yaltaqların sevimli "dövlət adamı" Azərbaycan siyasi hakimiyyətinin və şəxsən Prezident İlham Əliyevin hakimiyyətinin ən güclü dövründə olduğunu, dünyanın bir nömrəli mərkəzlərində hörmətlə qarşılandığını nəzərə ala bilməmişdi. Deputat Elşən Musayevin "böyük strateqi" heç özündən əvvəl şimal küləyində siyasi sümükləri Telman İsmayılovun həyatinə səpələnən Abbas Abbasovun acı taleyindən də dərs çıxara bilməmişdi. Dərhal Dövlət Təhlükəziliyi Xidmətində istintaq başladı. Ramiz Mehdiyev Cinayət Məcəlləsinin 278.1 (dövlət hakimiyyətini ələ keçirməyə yönələn əməllər), 274 (dövlətə xəyanət) və 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma) maddələri ilə ittiham olundu. Onun barəsində 4 ay müddətinə ev dustaqlığı qətimkan tədbiri seçilib. İstintaq davam edir.

## Dəstə üzvləri - Əbülfəs Qarayev, Ziya Məmmədov, Zahid Oruc, Məlahət İbrahimqızı...

Ramiz Mehdiyevin həbsi onun ətrafına, onunla yaxın olanlara, iddialarına şərik çıxanlara və ya belə iddialara düşənlərə aydın mesajdır. Ramiz Mehdiyevin dəstəsinin fəal üzvləri sırasında XİN rəhbəri Elmar Məmmədyarov, Prezident Administrasiyasının sabiq şöbə müdiri Əli Həsənov, sabiq mədəniyyət naziri Əbülfəs Qarayev, özünü "hakimiyyətin bolşeviki" hesab edən, vaxtilə AXCP-nin gənclər təşkilatının fəali olan Azər Qasımov, sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudov və onun müəyyən məqsədlər üçün Abxaziyaya pul ötürən qudası Cahangir Hacıyev, Baş qərgah rəsisi, general Nəcməddin Sadıqov və digərləri də var. Araşdırmalar nəticəsində bəlli olur ki, Ramiz Mehdiyevin "qara kassası", keçmiş nəqliyyat naziri Ziya Məmmədov da şəbəkənin əsas fiqurlarından hesab olunur. Bu şəxs sanki R.Mehdiyevə xidmət etmək üçün and içib. Hər fürsətdə ona yarınmaq, ona xoş gəlmək, tapşırıqlarını yerinə yetirmək üçün dəridən qabıqdan çıxır. Hətta Z.Məmmədov R.Mehdiyevdən "molodes" almaq üçün Göyçayda onun villa da tikdirib. Hazırda villa yerindədir. Bu səxavətli addımı yüksək qiymətləndirən R.Mehdiyev AMEA-ya gələndə ətrafına yığdığı "sadiqləri" arasında başda Ziya Məmmədovun qardaşı, sabiq deputat Elton Məmmədov da olub. Elton Məmmədov AMEA-nın "Yüksək Texnologiyalar Parkı" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru təyin edilmişdi və Ramiz Mehdiyev üçün rüşvət sxeminin qurulması, onun idarə edilməsi ilə məşğul olan əsas iki adamdan biri idi. Məlumatlara görə, Elton Məmmədov vasitəsilə Ziya Məmmədov da Mehdiyevlə daim əlaqədə olub.

Ramiz Mehdiyevin dəstəsində "Tərtər işi"nə görə məhkəmə sistemindən uzaqlaşdırılmış Kamal Əliyev də var idi. Ramiz Mehdiyev oradakı tapşırıqlarını yerinə yetirən Kamal Əliyevi Akademiyanın hüquq şöbəsinin müdiri vəzifəsinə təyin etməklə işsiz qoymamışdı. Sabiq PA rəhbəri kürəkəni İlham Əliyevin qardaşı Fikrət Əliyevi isə işlər idarəsinə müdir təyin etmişdi.

Ramiz Mehdiyev qrupunun üzvləri arasında Milli Məclisin deputatları Zahid Oruc və Məlahət İbrahimqızı da var. Bizimlə söhbətində isə Z.Oruc haqqında yazılanların, deyilənlərin əsassız və cəfəngiyyat olduğunu bildirdi. Qeyd etdi ki, o, hər zaman olduğu kimi bu gün də Ulu Öndər Heydər Əliyev siyasətinə və Onun ən layiqli siyasi varisi, ölkə Prezidenti, Qarabağ Fatehi cənab İlham Əliyevin siyasi kursuna sadiqdir. Z.Oruc onu da qeyd etdi ki, kimliyindən, tutduğu statusundan asılı olmayaraq xəyanət törətmiş şəxs mütləq cəzasını almalıdır.

R.Mehdiyevdən "dövlət adamı" obrazı düzəltməyə çalışmaq kökündən səhvdir. O cümlədən Mehdiyevi "böyük şəxsiyyət" hesab edən Məlahət İbrahimqızı və digər deputatlar, ayrı-ayrı orqanlarda oturanlar bilməlidirlər ki, nankorluğun, xəyanətin sonu acınacaqlı olur.

## Xəyanət yuvasında daha kimlər təmsil olunur- Adnan Əhmədzadə, Əli Həsənov, Eldar Mahmudov...

Araşdırmalara əsasən demək olar ki, R.Mehdiyevin dəstəsinin üzvləri arasında SOCAR-ın İnvestisiya Departamentinin sabiq rəhbər müavini Adnan Əhmədzadə bir qədər fərlənir. Çünki bu məxluq geniş maliyyə imkanlarına, biznes əlaqələrinə malik olmaqla yanaşı, həm də Rusiya və fars-molla rejiminin bəzi rəsmi şəxsləri ilə separat əlaqələri olub. Məhz bu separat əlaqələrə əsasən o, Azərbaycanın iqtisadi təhlükəsizliyinə qarşı təxribatlar həyata keçirib. Onun adı dəfələrlə ofşor şirkətlər, saxta sertifikatlar və şübhəli maliyyə əməliyyatları ilə yanaşı çəkilib. Xüsusilə də sanksiyalar altında əzilən Rusiya neftinin başqa ölkələr hesabına bazarlara çıxarılması, beynəlxalq enerji siyasətində gizli oyunlarda iştirakı barədə çoxsaylı faktlar mövcuddur. Daha bir fakt isə onun Ramiz Mehdiyevlə sıx əlaqələrinin olmasıdır. Diqqətçəkən məqam ondan ibarətdir ki, Ramiz Mehdiyevin siyasi planlarının və xəyanətinin ifşa olunması Adnan Əhmədzadənin iqtisadi təxribatı ilə eyni vaxta təsadüf edir. Adnan Əhmədzadə öz əməli ilə Azərbaycanın əsas ixrac məhsulu olan nefti, ötürücü kəmərləri, tankerləri, zavodları sıradan çıxardı, ölkəyə böyük maliyyə və iqtisadi zərbə vurdu, ən əsası isə, ölkəmizin beynəlxalq müstəvidə etibarını sarsıtmağa çalışdı. Onun bunu tamah məqsədilə etdiyi, yoxsa diversiya həyata keçirdiyini istintaq daha dəqiq müəyyənləşdirəcək.

Ramiz Mehdiyev isə siyasi diversiya planları quraraq, onu həyata keçirtməyə çalışdı. Bu təxribatların eyni vaxtda baş verməsi təsadüf olmaya da bilər. Hər halda, aidiyyəti orqanlar məsələni tam araşdırıb həqiqəti üzə çıxaracaqlar.

Şəbəkənin üzvləri arasında sabiq Milli Təhlükəsizlik naziri Eldar Mahmudovun olması ciddi məsələlərdən xəbər verir. Çünki bu şəxs bir müddət nazir işləyib və kifayət qədər məlumatlara və əlaqələrə malikdir. Həmin əlaqələrindən istifadə edərək dəstəyə ölkə daxilində fəlakətlə nəticələnə biləcək təxribatlar törədə bilərdi. E.Mahmudov xaricə çıxış əldə edə bilməməsi səbəbindən onun müəyyən tapşırıqlarını Prezidentin sabiq köməkçisi Əli Həsənov icra edir. Bu məsələdə onlara adı daim pozucu işlərdə, təxribatçı əməllərdə, xaricdəki antimilli ünsürlərin maliyyələşdirilməsində çəkilən Nurlan Həsənov da yardım göstərir. Məlumata görə, Nurlan Həsənovla Əli Həsənov İstanbulda görüş keçiriblər. Görüşdə Azərbaycan hakimiyyəti və dövlətinə qarşı xəyanətkar planların necə və hansı formada həyata keçirilməsi müzakirə olunub. Bu arada ölkə mətbuatında Əli Həsənovun vəzifədə olarkən tutduğu mövqeyindən, əyləşdiyi kreslosundan, ona verilən səlahiyyətlərdən istifadə edərək özünə baş gicəlləndirən var-dövlətinin siyahısı dərc olunub.

Müsbət haldır ki, cinayətkar dəstə zamanında ifşa olundu. Buna görə Azərbaycan hüquq-mühafizə orqanlarına təşəkkür edirik. Əks halda ölkəmizdə təxribatlar baş verə bilərdi. Bu isə ölkəmizin beynəxalq aləmdəki yüksək nüfuzuna xələl gətirərdi. Bu baş vermədi və Ramiz Mehdiyev başda olmaqla dəstə üzvləri ifşa olundular. Yəqin ki, cinayətə cəhd edən dəstə üzvləri layiq olduqları cəzanı alacaqlar. Digər tərəfdən onlar qeyri-qanuni yollarla əldə etdikləri milyardlarla dəyərində daşınan, daşınmaz əmlakları xalqa qaytarılacq.

**İLHAM ƏLİYEV**

# "Ermənistanın sülh prosesində tərəddüdü daxili ziddiyyətlər və xarici təsirlərdən qaynaqlanır"

**"Ermənistan rəhbərliyinin sülh prosesi ilə bağlı tərəddüdləri həm daxili siyasi ziddiyyətlərdən, həm də xarici təsirlərdən qaynaqlanır. Azərbaycanla sülh müqaviləsinin imzalanması regionda yeni geosiyasi reallığın formalaşması deməkdir və bu reallığı qəbul etmək Ermənistanda hələ də siyasi cəsarət tələb edir". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib.**

Onun sözlərinə görə, Paşinyan hökuməti formal olaraq sülh danışıqlarına razılıq versə də, bu prosesdə ardıcıl və prinsipial mövqe nümayiş etdirmir. Bunun bir neçə səbəbi var. Əvvəla, Ermənistanda hələ də revanşist qüvvələr aktivdir və onlar cəmiyyətə "ərazi itkisi", "milli məğlubiyyət" kimi emosional mesajlar ötürürlər. Bu isə hökumətin atdığı hər bir sülh addımını daxildə böyük müqavimətlə üz-üzə qoyur: "Digər tərəfdən, Rusiyanın bölgədəki maraqları və təsir mexanizmləri Ermənistanın müstəqil qərarvermə imkanlarını məhdudlaşdırır. Moskva Cənubi Qafqazda balansı qorumaq üçün Ermənistanın sülh sazişini uzatmasında maraqlıdır. Ermənistan rəhbərliyi Qərblə Rusiya arasında seçim etməkdə də çətinlik çəkir. Paşinyan bir tərəfdən Avropa İttifaqı və ABŞ-a yaxınlaşmaq istəyir, digər tərəfdən isə hələ də iqtisadi və təhlükəsizlik baxımından Rusiyadan asılı vəziyyətdədir. Bu ikili siyasət sülh prosesində qeyri-müəyyənlik yaradır. Qərb Ermənistandan real addımlar gözləyir, Rusiya isə prosesin uzanmasını öz təsirinin saxlanılması vasitəsi kimi görür. Azərbaycan tərəfi artıq sülh prosesinin bütün əsas prinsiplərini təqdim edib və konkret iradə göstərib.



Azərbaycan açıq şəkildə bəyan edir ki, sülh müqaviləsinin imzalanması regionda davamlı sabitlik, iqtisadi əməkdaşlıq və yeni kommunikasiya xətlərinin açılması üçün əsas şərtdir. Ermənistan isə bu reallığı qəbul etdikcə, həm iqtisadi, həm də siyasi cəhətdən qazanclı çıxacaq. Lakin prosesin uzadılması və qeyri-konstruktiv mövqelər Ermənistanın öz təcridini daha da dərinləşdirir".

*Ziya Hikmətoğlu*

## FELYETON



# Ciyər axşamı

-Fatma xala, Zəhragil sizi ciyərə çağırıb?

- Bəs necə çağırmayıb, əlbəttə, çağırıblar.

-Hamınız gedəcəksiniz?

-Əlbəttə, guya neçə nəfərik ki? Kişi, mən, iki oğlum, gəlinim, bir də üç nəvəm. Elə onlar da bizə ailəliklə gəlmişdi də Kamilin toyunda.

-Oğlan evinin ciyəri nə vaxtdır?

Fatma xala:

-Mən biləni birigündür.

-Ora da gedəcəksən?

-Ay qız, söz danışırsan ey. Niyə getmirəm ki?

-Hə, yaxşı, Fatma xala, gedəndə, bizi də səslə, birlikdə gedək.

Fatma xala axşamüstü Gülsümü səsləyir, bir-birinə qoşulub gedirlər Zəhragilə ciyərə. Yolda Gülsüm Fatma xalaya deyir:

-Ay Fatma xala, bu xınayaxdı axşamı deyildi, haradan oldu axı ciyər?

Fatma xala:

-Ay qız, gündə bir moda çıxır da. Bizim vaxtımızda ciyər vardı? Oğlan evindən bir dəstə adam yığışıb davul-zurna ilə gedirdi qız evinə, rəqs edir, oynayır, gəlinin əl-ayağına xına qoyur, bir stəkan da şirniyyatla çay içib, bəyin də xınasını götürüb qayıdırdı.

Ay qız, Gülsüm, niyə soruşursan? Nəyi pisdir ki, gedib müftə-müsəlləh yeyib-içirik də, həm qız evində, həm də oğlan evində. Əvvəl ancaq şirniyyatlı süfrə açılırdı. Amma indi xaşlı-ciyərli. Pisdir, bəyəm? Allah bunu çıxaranın köməyi olsun.

-Ay Fatma xala, nə deyirəm ki. Mən də elə sən dediyin kimi bilirdim.

-Nəyi, ay qız?

-Xına gecəsini də. Ancaq, vallah, maraq məni bürüyüb ki, bu xına birdən-birə necə çevrilib ciyər oldu. Onu soruşuram.

-Ay qız, bu da xınadır da, amma ciyərli xına. Əvvəl ciyəri, toy üçün kəsilən mal-heyvanın əl-ayağını bişirib əldə-ayaqda işləyənlərə vermirdilər? İndi də camaat ta toyunu həyətində etmədiyinə görə həmin mal və heyvanın əl-ayağını, ciyərini bişirib xınada camaata yedirdir də. Nəyi pisdir ki? Onda səhərdən axşama işləyib sonra yeyirdin. İndi isə işləməyib dişləyirsən də. Deyəsən, sənə ağırlıq eşir ha, bu müftə yemək.

-Ay Fatma xala, yaxşı görək, sən lap məni atəşə tutdun.

-Əcəb elədim. Elə sənin kimilərdir hər şeyi söz edən. İki-üç nəfər də sənin kimisi desə, bir də görəcəyik ki, ciyəri yığışdırdılar.

Gülsümün matı-qutu qurudu. Fatma xala onu elə susdurdu ki, qızın ta cıqqırı da çıxmadı.

Beləliklə, çatdılar Zəhragilin həyətinə. Həyətdə masalar düzülüb, üzərində də salat, turşu, çörək, sular, meyvə və ciyər, xaş.

Gülsüm Fatma xalaya pıçıldadı ki, ay Fatma xala, bu ciyəri başa düşdüm, axı xaşı axşam yeməzlər axı, ağır yeməkdir. Bunu səhər yemirdilər?

Fatma xala Gülsümün ayağına bir dürtmə vurub, ay qız səsini kəs, başını sal aşağı, başla yeməyə, nə səhər-axşam salmısan?.

***

Həyətdə o başda kişilər üçün ayrıca masalar açılmışdı. Üzərində spirtli içkilər də var idi. Ciyərlə, xaşla içən-içənə idi. Axı kişilərə görə ciyər, xaşla araq çox yaxşı "gedir".

***

Gülsüm ətrafa xeyli baxandan sonra yenə Fatma xalanın qulağına pıçıldayır:-Ay Fatma xala, heyf deyildi o xına gecələri. Çal-çağır, rəqslər, haxıştalar. Bu nədir, camaatın işi ancaq yeməkdir. Sabah onsuz da toydur da, bunların hamısı həm də toya dəvətlidir. Nə ehtiyac var axı bu qədər xərcə?

-Fatma xala:

-Ay qız, səsini kəs. Ac qarına nə çal-çağır. Bir də ki, bu adətdir, belə olmalıdır, az danış. O da olacaq da. İndi oğlan evi gəlib yeyib-içəcək, sonra gəlinin xınasını qoyub gedəcəklər.

Gülsüm:

-Yaxşı, ay Fatma xala, bunu başa düşdük. Xına qoyub gedəcəklər. Biri gün də oğlan evində ciyər olacaq, yəni xına da. Bəs bu nə deməkdir?

-Ay qız, sən elə bil başa planetdən gəlmisən. Bəs qız evi də oğlana xına aparacaq da.

-Fatma xala, bunun adı elə xına gecəsi qala bilməzdi, niyə ciyər axşamı etdilər ki?

-Gülsüm, sən ta mənim bu ciyərimi burnumdan gətirdin. Ay bala, neçə illərdir xınaxına, ta camaatın qulağı pas bağlamışdı. Hə, guya ciyər olanda nə olacaq ki?.. Müsəlman belədir də, yeyir, danışır, yemir, danışır... Xına idi, indi də oldu ciyərli xına.

Gülsüm:

-Heç nə, nə deyirəm ki, Fatma xala.

Fatma xala Gülsümü elə süzdü ki...

Beləliklə, Gülsüm ta nə dindi, nə da danışdı.

*Mətanət Məmmədova*

# İnsanlar niyə bir-birinə qarşı daha da aqressivləşib?

***Son günlər insanlar arasında bir-birinə qarşı aqressiya artır. İnsanlar əvvəlki kimi xoşbəxt görünmür. İnsanların bir-biriləri ilə ünsiyyəti azalır. Bəs görəsən bunun səbəbləri nələrdir? SİA bu barədə şəhər sakinləri arasında sorğu keçirib.***

**Şəhər sakini Firəngiz Useynova:** "İnsanlar arasında aqresiyyanın artmasının səbəbi maddi imkanın aşağı olmasıdır. İnsanlar bir tikə çörək üçün işə səhər çıxıb, axşam gəlirlər. Gündən-günə ölkədə hər şeyin qiyməti artır. İnsanların ərzaq almağa imkanı yoxdur. Mənim 62 yaşım var. Təqaüd üçün yaşım çatmır. Həyat yoldaşımın pulu ilə dolanıram. Qadınların pensiya yaşını 58-dən 65-ə qaldırıblar. Pensiya yaşı günü-gündən qaldırılır. Ona görədə insanlar aqresivləşirlər. İnsanlar istələrlərdə ürəkləri istədikləri şeyləri ala bilmirlər".

**Şəhər sakini Etibar Məmmədov:** "İnsanların aqressiv olmasının səbəbi bahalıqdır. Aydın məsələdir ki, bu insanların şəxsi həyatlarına da təsir edir. Qiymətlər günü-gündən artır. Pensiya yaşını da qaldırmaq istəyirlər. Gənclər üçün həyat çox çətindir. Onlar iş tapa bilmirlər. Ona görə də insanlar xoşbəxt deyillər".

**Şəhər sakini Təranə Şahbazova:** "Hesab edirəm ki, hər yaş kateqoriyası üçün həyat çox çətindir. Gənclərin gələcəkləri ilə bağlı qayğıları var. Maddi və mənəvi çətinliklər insanları çox yorur. Bu da insanlarda aqresiyyanı artırır. Ona görə də insanlar bir-birlərinə hörmət etmir. Etika qaydaları pozulur. İnsanlar əsəbidirlər və həyat şərtləri belə olduğu müddətdə vəziyyət bu cür davam edəcək. Əsas gənclər arasında işsizlik problemi həll olunmalıdır. Ali savadlı gənclər iş tapmaqda çətinlik çəkirlər".

**Şəhər sakini Sadiq Quluzadə:** "Mən gəncəm və düşünürəm ki, bir gənc üçün universitetdə dərs yükü və iş yükü gəncləri yorur. Dolanışıq üçün tələbələr işləmək məcburiyyətindədirlər. Bir tərəfdən yuxusuzluq, digər tərəfdən də stress gənclər arasında aqresiyyanı artırır. Semestr imtahanları dövründə əlavə imtahan stressi gəncləri məhv edir. İmtahan vaxtlarının iş gününə düşdüyü dövr ümumiyyətlə stressdir. İşdən icazə almalı oluruq. İmtahanlardan keçmək dərdi də bizi daha da gərginləşdirir. İşsizlik problemi də insanlarda aqresiyyanı artırır. Gənclərin əksəriyyəti işsizdir".

**Şəhər sakini Əli Məmmədli:** "Mən onu deyə bilərəm ki, insanlar əvvəlki dövrlə müqayisədə çox dəyişiblər. Mən insanları müşahidə edirəm və görürəm ki, insanlar çox yorğundur. Mənim öz dostum çox əsəbi olub. Məsələn, zəng edirəm üzümə dəstəyi asır. Bildirir ki, çox yorğunam. İnsanları məhv edən yuxusuzluqdur. Bu gün araşdırma aparsaq görərik ki, insanların əksəriyyəti normal yuxu yata bilmirlər. Bundan başqa ağır həyat, maddi problemlər insanlar arasında aqresiyyanı daha da artırır. Çünki maaşlar və təqaüdlər artırılmır. Ancaq marketlərdə qiymətlər günü-gündən artır. Elə bir gün yoxdur ki, qiymət artımı olmasın".



**Şəhər sakini Fuad Abdullazadə:** "Məncə mobil telefonlardan istifadə insanlar arasında aqresiyyanı artırır. Ona görə də əvvəlki dövrlə müqayisədə insanlar arasında aqresiyya artıb. Bundan başqa ağır iş rejimi, gündəlik tıxaclarda aqresiyyanı artıran amillərdəndir. Mobil telefonlardan insanlar neqativ xəbərlər oxuyurlar və bu insanların əhval ruhiyyəsinə mənfi təsir göstərir. Birdə insanlar arasında aqressiyanı artıran səbəblərdən biri də işsizlikdir. Çünki insanların əksəriyyəti işsizdir. Maddi problemlərdə aqressiyanı artırır. Çünki gündəlik 12 saat işləyirsən və aldığın maaş ərzağa belə çatmır. Maaşlar məncə artırılmalıdır. Bu gün maaşlar qiymətlərə uyğun deyil".

*İlkin Məmmədkərimov*

# Uğur anlayışının təhsildə ideologiyalaşması

***Müasir təhsil sistemində "uğur" anlayışı artıq sadəcə bir nəticəni deyil, insanın sosial dəyərinin ölçüsünü ifadə edən göstəriciyə çevrilib. Uğur, ilkin mənasında inkişaf və şəxsi potensialın gerçəkləşməsi kimi başa düşülsə də, indi o, ictimai müqayisənin və performansın sinoniminə çevrilmişdir. Fransız sosioloqu Pyer Burdye qeyd edirdi ki, təhsil sistemi sosial sinif fərqlərini azaltmaq əvəzinə çox vaxt onları təkrarlayır və "mədəni kapitalın ötürülməsi" mexanizminə çevrilir (Bourdieu, Distinction, 1984). Bu baxımdan, uğur ideyası fərdi bacarığı deyil, sosial imtiyazı və gözləntiləri təmsil etməyə başlayır.***

Uşaqlar çox erkən yaşdan "uğurlu olmalısan" şüarının daşıyıcısına çevrilirlər. Valideyn, məktəb və cəmiyyət bu anlayışı psixoloji təzyiq alətinə çevirərək uşaqlıq dövrünün təbii sərbəstliyini və oyun yönümlü tədris prosesini məhdudlaşdırır. Bu vəziyyəti psixoloq Alfie Kohn "uğur mədəniyyətinin tələsi" adlandırır (Kohn, The Myth of the Spoiled Child, 2014). Onun fikrincə, müasir təhsil uşaqlardan öyrənməyi deyil, nəticə gətirməyi tələb edir yəni öyrənmək prosesinin özünü dəyərsizləşdirir.

Məktəblərdə "qiymət" və "ballar" üzərindən qurulan sistem insan dəyərinin ölçülməsi mexanizminə çevrilib. Bu, təhsilin öz mahiyyətindən uzaqlaşmasına, öyrənmənin daxili motivasiyadan çox, xarici mükafat mexanizmi ilə idarə olunmasına gətirib çıxarır. Beləliklə, qiymət, uşaq üçün bilikdən daha mühüm sosial status simvoluna çevrilir. Amerikalı təhsil tədqiqatçısı Carol Dweck bu halı "sabit düşüncə tərzi" (fixed mindset) adlandırır və qeyd edir ki, bu sistem uşaqlarda səhv etmək qorxusu yaradır, təcrübəni deyil, nəticəni mərkəzə çəkir (Dweck, Mindset, 2006).

Azərbaycan reallığında da bu təzyiq özünü kəskin göstərir. Məktəb və repetitor sistemi arasında formalaşan rəqabət mədəniyyəti uşaqlıq dövrünü yarış meydanına çevirir. Uşaqlar "mükəmməl olmaq" və "zəif görünməmək" qorxusu ilə yaşayır, bu isə emosional yüklənmə, özgüvən itkisi və sosial müqayisə psixozu yaradır. Belə şəraitdə uşağın fərd kimi yetişməsi deyil, standart modelə uyğunlaşması qiymətləndirilir. Bu ideologiyanın ən təhlükəli tərəfi, uğurun mənəvi ölçülərini sıradan çıxarmasıdır. Əxlaq, mərhəmət, empatiya və yaradıcılıq kimi dəyərlər "ölçülə bilmir" deyə, kənarda qalır. Halbuki təhsil sadəcə bilik ötürmək deyil, həm də insan yetişdirməkdir. Finlandiyalı pedaqoqların tez-tez vurğuladığı kimi, "uğurlu təhsil sistemi" o demək deyil ki, bütün şagirdlər eyni nəticə göstərir əksinə, hər uşağın fərqli potensialını üzə çıxarır (Sahlberg, Finnish Lessons, 2015). Beləcə, uğur ideyası tədricən ideoloji mərkəzə çevrilərək uşağın daxili aləmini deyil, kənar gözləntiləri formalaşdırır. Bu, həm sosial ədalətsizlikləri dərinləşdirir, həm də emosional olaraq gənc nəsildə tükənmişlik sindromunun əsasını qoyur. Uşaqlıq bir yarış deyil, bir yol olmalı idi amma müasir təhsil bu yolu start və finiş xətlərinə bölüb.

Uşaqlıq bir zamanlar oyun, təxəyyül və təbiiliklə dolu bir mərhələ idi. Bu dövrün əsas məqsədi öyrənmək deyil, həyatı duymaq və hiss etmək idi. Lakin müasir təhsil sisteminin sərtləşməsi və performans yönümlü quruluşu uşaqlığı bir yarış mərhələsinə çevirdi. Artıq çox az uşaq oyuna görə tənbeh olunmur. Əksinə, oyundan yayınaraq daha çox dərs oxumağa təşviq edilir. Bu, təkcə psixoloji baxımdan deyil, həm də antropoloji mənada bir mədəni keçid göstəricisidir. Cəmiyyət uşaqlığı "boş vaxt" kimi görməyə başlayıb.

Psixoloq Erik Eriksonun inkişaf mərhələləri nəzəriyyəsində uşaqlıq dövrü "təcrübə toplama və yaradıcılıq bacarığının formalaşması" kimi izah olunur (Erikson, Childhood and Society, 1950). Lakin bu gün uşaqların həyatında yaradıcılıq və sərbəst oyun yeri testlər, imtahanlar və "hazırlıq"la əvəzlənib. Daim nəticə göstərmək məcburiyyəti, onların daxili motivasiyasını zəiflədir və "emosional tükənmə" (burnout) halını çox gənc yaşda yaradır. Məktəbdəki sistemli təzyiq uşaq psixikasını dərin şəkildə formalaşdırır. Hər səhv cəza, hər düzgün cavabsa tərifə mükafatlandırılır. Beləcə, uşaq öyrənməyi özünə dəyər qazanma vasitəsi kimi görür. Bu, emosional baxımdan çox təhlükəlidir. Çünki dəyər hissi artıq onun içindən deyil, kənar təsdiqdən asılı olur. Amerikalı psixoloq Edward Deci qeyd edir ki, motivasiyanın xarici qaynaqlara bağlı olması, insanı daxildən idarə olunan deyil, idarə edilən subyektə çevirir (Deci & Ryan, Self-Determination Theory, 1985).

Bütün bunlar uşaqlığın təbii emosional proseslərini məhv edir. "Uşaqlıq qorxusu" adlanan bir fenomen formalaşır. Yəni uşaq olmaqdan utanmaq. Erkən yaşlardan "yetkin davran", "boş vaxt keçirmə" mesajları alan uşaqlar üçün oyun və istirahət utanc hissi yaradır. Bu isə onları emosional olaraq böyütmür, əksinə, qorxmuş və nəzarətə alışmış fərdlərə çevirir.

Azərbaycan reallığında bu hal daha kəskin şəkildə müşahidə olunur. Ailələr çox vaxt övladlarının uğurunu öz sosial statuslarının davamı kimi görürlər. "Biz sənin yaşında daha çox oxuyurduq", "sən uğurlu olsan, ailə fəxr edəcək" kimi ifadələr uşağın öhdəsinə emosional məsuliyyət yükü qoyur. Beləliklə, uşaq yalnız öz həyatına deyil, ailəsinin reputasiyasına da cavabdeh hiss edir. Bu hal psixoloji olaraq daimi gərginlik, qorxu və utancın fonunda yaşamağa gətirib çıxarır.

Məktəb mühitində bu basqı daha sistematik xarakter daşıyır. Test mərkəzli təhsil modelləri, repetitor mədəniyyəti və "ən yaxşı məktəbə düşmək" yarışı uşaqların emosional dünyasını bir müqayisə laboratoriyasına çevirir. İngilis pedaqoqu Ken Robinson yazırdı ki, bugünkü məktəblər "yaradıcılığı öldürür", çünki fərqli düşünmək əvəzinə, eyni cavabı verməyi öyrədir (Robinson, Do Schools Kill Creativity?, 2006). Bu cür sistemdə səhv etmək öyrənmə prosesinin bir hissəsi deyil, uğursuzluq əlaməti kimi qəbul edilir. Nəticədə uşaqlar səhv etməmək üçün öyrənməyə çalışır, amma bu zaman risk alma, sual vermə və yeni ideya yaratma kimi təbii öyrənmə bacarıqlarını itirirlər.

Emosional tükənmənin ən ağrılı nəticəsi, uşaqların öz daxili səslərindən uzaqlaşmasıdır. Onlar artıq "nə istəyirəm?" sualını vermir, çünki cavab çoxdan verilib: "yaxşı oxumalısan". Bu avtomatik cavab, fərdi arzuların, maraqların və yaradıcılığın üstünü örtür. Psixoloq Carl Rogers bu vəziyyəti "şəxsi mənliyə yadlaşma" kimi izah edir (Rogers, On Becoming a Person, 1961). Yəni insan özü olmaqdan qorxur, çünki öz olmaq sistemin təsdiqləmədiyi bir şeydir.

Bütün bu mexanizmlər nəticəsində təhsil sisteminin içində emosional olaraq tükənmiş, lakin performans göstəriciləri yüksək bir nəsil formalaşır. Onlar çox oxuyur, amma az hiss edirlər, çox çalışır amma az anlayırlar. Təhsil insan ruhunu inkişaf etdirmək yerinə, çox vaxt onu mexanikləşdirilmiş uğur alətinə çevirir. Uşaqlığın itirilməsi təkcə fərdi yox, sosial problemə çevrilir. Çünki uşaqlığı əlindən alınmış nəsil, gələcəkdə emosional empatiyası zəif, sosial tənhalığa meyilli və qorxu ilə idarə olunan yetkinlər kimi formalaşır. Onlar cəmiyyətin içində yaşasalar da, iç dünyalarında daim "yetərli olmamaq" hissini daşıyırlar. Beləcə, müasir təhsil sistemi öz məqsədinə zidd bir nəticə doğurur. Bilikli amma yorğun nəsil. Halbuki sağlam təhsil uşağa sadəcə öyrənməyi deyil, insan olmağı öyrətməlidir.

Müasir təhsil sisteminin böhranı təkcə akademik uğursuzluqlardan deyil, insanı unudan bir struktur halına gəlməsindən qaynaqlanır. Təhsil uzun müddət "məlumat yığımı" kimi qəbul edildiyi üçün onun mənəvi və psixoloji tərəfi kölgədə qalıb. Halbuki təhsilin əsas məqsədi, bilik ötürməkdən çox, insanı formalaşdırmaq, yəni onun düşünmə, duyma və əlaqə qurma qabiliyyətlərini inkişaf etdirməkdir. Bu anlayışdan irəli gələn yeni istiqamət (insan yönümlü təhsil) son illərdə bir çox pedaqoqlar və sosioloqlar tərəfindən alternativ model kimi irəli sürülür.

Bu modelin təməlində bir ideya dayanır, hər bir uşaq fərqli bir ritmlə və fərqli istedadla öyrənir. Ona görə də təhsil sistemi standart deyil, çevik olmalıdır. Amerikalı pedaqoqu Cohn Dewey hələ XX əsrin əvvəlində yazırdı ki, "təhsil həyatdan ayrı ola bilməz, çünki öyrənmək yaşamağın özüdür" (Dewey, Experience and Education, 1938). Dewey-in fikrincə, məktəb cəmiyyətin miniatür forması olmalı, burada uşaqlar təkcə məlumat deyil, həm də məsuliyyət, əməkdaşlıq və empatiya kimi dəyərləri təcrübə etməlidirlər.

İnsan yönümlü təhsil anlayışı psixoloji təhlükəsizliyin qorunmasına əsaslanır. Uşağın səhv etmək, sual vermək və fərqli düşünmək azadlığı olmalıdır. Finlandiya təhsil sistemində bu prinsip dövlət səviyyəsində tətbiq olunur: orada şagirdlər arasında rəqabət minimum səviyyədədir, imtahanlar azaldılıb, müəllimlər isə emosional mühitin qorunmasına görə məsuliyyət daşıyırlar. Pasi Sahlberg yazır ki, "Finlandiyada uğur, nəticə deyil, proses üzərindən qiymətləndirilir" (Sahlberg, Finnish Lessons, 2015). Yəni uşağın öyrənməyə münasibəti, marağı və düşünmə tərzi ən az nəticə qədər önəmlidir.

Bununla yanaşı, insan yönümlü təhsil yaradıcılığın sosial dəyər kimi bərpasını hədəfləyir. Britaniyalı pedaqoq Ken Robinson bu ideyanı "yaradıcılıq savadı" adlandırır. Onun fikrincə, təhsil sistemi uşaqlara yalnız yazmağı və hesablamağı deyil, təsəvvür etməyi və fərqli düşünməyi də öyrətməlidir (Robinson, Creative Schools, 2015). Yaradıcılıq yalnız sənət sahələrinə aid deyil, həm də problem həll etmə, empatiya qurma və yenilik gətirmə bacarığıdır.

Bu baxımdan, təhsilin gələcəyi "rəqabət" deyil, kooperasiya mədəniyyəti üzərində qurulmalıdır. Uşaqlara bir-birindən üstün olmaq deyil, bir-birini anlamaq öyrədilməlidir. Bəzi məktəblər artıq bu istiqamətdə təcrübələr aparır. Məsələn, Yaponiyada "timshel" adlı proqramda şagirdlər bir-birinin layihələrini qiymətləndirir, kollektiv şəkildə nəticə çıxarır və beləliklə həm tənqidi düşüncə, həm də empati bacarıqlarını inkişaf etdirirlər.

Azərbaycan reallığında isə bu cür yanaşmaya ehtiyac getdikcə daha çox hiss olunur. Burada əsas problem, təhsilin imtahan yönümlü sistem kimi qalmasıdır. Şagirdlərin yaradıcılığı çox vaxt dərs proqramının kənarında qalır. Müəllimlər, bəzən, özləri də nəticə təzyiqi altında olduqları üçün uşaqların psixoloji halına diqqət ayıra bilmirlər. Amma son illər bəzi müəllimlər və məktəblər emosional savad, sosial bacarıqlar və tənqidi düşüncə təlimlərinə üstünlük verməyə başlayıblar. Bu istiqamət çox vacib dönüş nöqtəsidir, çünki insan yönümlü təhsil, əslində, emosional savadın inkişafı ilə başlayır.

Emosional savad dedikdə, uşaq öz hisslərini tanımağı, başqalarının hisslərini anlamağı və münasibətlərdə balans qurmağı öyrənir. Daniel Goleman yazır ki, emosional savad "ağlın sükunəti üçün vacib olan ikinci zəkadır" (Goleman, Emotional Intelligence, 1995). Bu bacarıqlar öyrədilmədiyi zaman, yüksək akademik nəticələr belə insanı sosial və psixoloji olaraq güclü etmir.

Təhsildə insan yönümlü modelin həyata keçməsi üçün bir neçə əsas prinsip önə çıxır. Məsələn təhsil tənqidi düşüncə üzərində qurulmalıdır, əzbərləmə yox. Qiymətləndirmə formativ olmalıdır, yəni proses və inkişaf nəzərə alınmalıdır. Müəllim-şagird münasibəti üfüqi olmalıdır, yuxarıdan-aşağıya nəzarət yox, qarşılıqlı öyrənmə münasibəti. Müəllimlər üçün psixoloji dəstək proqramları olmalıdır, çünki stressli müəllim rahat uşaq yetişdirə bilməz. Təhsil proqramlarına psixologiya və etik dəyərlər dərsləri əlavə edilməlidir, çünki bu, empatiyanın bərpası üçün zəruridir.

İnsan yönümlü təhsil modeli həm fərdi, həm də kollektiv səviyyədə yeni bir mədəniyyətin əsasını qoya bilər: uğurun ölçüsü nəticə deyil, insan kimi qalmaq bacarığı olacaq. Uşaqlığın qorunması, təkcə psixoloji sağlamlıq məsələsi deyil, cəmiyyətin gələcək emosional mədəniyyətinin təminatıdır. Təhsil sistemi əslində millətin gələcəyini formalaşdırır. Əgər bu sistem uşaqlara yalnız rəqabəti, qorxunu və itaəti öyrədərsə, cəmiyyət emosional baxımdan kasad bir nəsil yetişdirər. Amma təhsil uşaqlara yaradıcılıq, empatiya və insanlıq öyrədərsə, gələcək yalnız ağıllı deyil, həm də daxilən sağlam və mərhəmətli insanlar üzərində qurular. Beləcə, insan yönümlü təhsil modeli sadəcə bir pedaqoji islahat deyil, insan ruhunu xilas etməyin sosial strategiyasıdır.



***Nigar Şahverdiyeva***

# Demoqrafik təhlükə: qocalan, azalan, boşanan Azərbaycan

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*





## ÇIXIŞ YOLU

Son onilliklərdə Azərbaycanda əhalinin strukturunda yaşlı nəslin payı artır, gənclərin payı azalır. 1991-ci ildə hər 1000 nəfərə 26,6 doğum olub, 2024-cü ildə isə 1000 nəfərə 10 doğum qeydə alınıb. Bundan əlavə, nikahların 30-40 il əvvəllə müqayisədə xeyli azalması, boşanmaların isə kəskin artımı heç kəsə sirr deyil. 1991-ci illə müqayisədə 1000 nəfərə təbii artım 6 dəfə, nikah 2,2 dəfə azalıb, boşanma 1,3 dəfə artıb.

Qısası, bütün bu tendensiyalar paralel gedir- nəticədə əhali artımı azalır, ailə qurulması azalır. Burada 2 əsas səbəb var- sosial-iqtisadi faktor və mənəvi-psixoloji faktor. Lakin bu 3 tendensiyaya ayrı-ayrılıqda baxsaq hərəsində bir faktorun payı o birindən üstün olur. Məsələn, ailə qurulmasının və uşaq doğumunun azalması əsasən sosial-iqtisadi faktorlarla bağlıdırsa, boşanmaların artması əsasən mənəvi-psixoloji faktorla bağlıdır.

Sosial-iqtisadi problemlər- yoxsulluq, evsizlik, işsizlik gənclərin ailə qurmasını, ailələrdə uşaq doğumunu əngəlləyir. Bu tendensiya milli genofondumuzu təhdid edir. Bu 2 tendensiyada mənəvi deqradasiyanın da rolu var, belə ki, sosial-maddi cəhətdən yaxşı vəziyyətdə olan bəzi "müasirləşmiş" gənclər evlənməməyə və ya evləndikdə isə daha az uşağa üstünlük verir, beləlıri ancaq öz əyləncəsi və öz maraqları üçün yaşamağa çalışır. Lakin belələrinin sayı sosial-maddi səbəblərdən bunu edə bilməyənlərlə müqayisədə xeyli azdır. Ən çox gəlir azlığı, yoxsulluq, işsizlik, mənzil problemi mənfi təsirini göstərir. İndi ailələr bir uşağı güclə saxlayıb boya-başa çatdıra bilirlər. Bir cəmiyyətin davamlı artımı üçün ailələrdə orta uşaq sayı 3 olmalıdır. Fertillik əmsalı, yəni ümumi nəsilvermə əmsalı aşağı düşdükdə əhalinin qocalması prosesi gedir, gənc nəslin çəkisi azalır, yaşlı nəslin çəkisi artır, bu isə iqtisadi aktivliyi, əmək qüvvəsini azaldır və dövlətin sosial yükünü artırır.



Demək olar ki, bütün ölkələrdə əhalinin artımı, çoxuşaqlılığın təbliği üçün müxtəlif sosial dəstək proqramları həyata keçirilir.



Yeni qurulan ailələrə maddi və sosial yardımlar, mənzil üçün uzunmüddətli güzəştli kreditlər, hər uşağa görə birdəfəlik yardımlar, aylıq uşaq pulu verilir, çoxuşaqlı ailələrə əlavə ev və torpaq sahəsi kimi hədiyyələr təqdim olunur və s. Təəssüf ki, bizdə bunların heç biri yoxdur. Buna görə də insanlar çoxuşaqlılıqda maraqlı deyillər.

İndi Azərbaycanda çoxuşaqlılıq meyarı 6 uşaqdan başlayır, halbuki bu, optimal yanaşma deyil, çünki 6 uşaqlı ailələrə nadir hallarda rast gəlinir. Hazırki reallıqlarda 3 uşaqlı ailə çoxuşaqlı deməkdir. Çünki 1 uşaqlı ailə modelinə keçmişik, 2 uşaqlı ailələr belə azalıb. Dəfələrlə təklif etmişik ki, çoxuşaqlılıq meyarı 3 uşağa endirilməlidir. 3 uşaqlı ailələrə maddi və sosial yardımlar, aylıq uşaq pulu, əlavə güzəştlər tətbiq edilməlidir. Bunları etməsək, demoqrafik vəziyyət yaxşılaşmayacaq.

Evlənmələrin və uşaq doğulmasının azalması ilə yanaşı demofraik fəlakətə aparan digər tendensiya- boşanmaların ildırım sürətilə artması isə artıq başqa səbəblərlə bağlıdır. Digər 2 tendensiyadan fərqli olaraq burada sosial-maddi faktorlar minimum paya malikdir, problem əsasən mənəvi-psixoloji faktorla bağlıdır. Belə ki, müasir gənclərin böyük əksəriyyəti ailələri mənəvi yox maddi dəyərlər üzərində qurur, həyata da, ailəyə də maddi tərəfdən baxırlar. Boşanma səbəbləri arasında xəyanət, bir-biri üçün fədakarlıq və qayğıkeşlik etməmək, eqoistlik, öz üstünlüyünü və maraqlarını təmin etmək, psixoloji problemi olmaq və sair bu kimi xüsusiyyətlər əsas roy oynayır ki, bunların da hamısı mənəvi faktorlardır.

Maddi çətinlikdən ailələr dağılmır. Bütün tariximiz boyu ən ağır vaxtlarda boşanma minimum səviyyədə olub. Bu gün də boşananların çoxunun maddi sosial vəziyyəti ağır deyil. Dünyada da, ən çox boşanmalar zəngin ölkələrdə, ən az isə yoxsul ölkələrdədir. Göründüyü kimi, burada əsas faktor sosial problemlər deyil, mənəvi deqradasiyadır.

Son dövlərdə "müasirlik", qadın azadlığı", "gender bərabərliyi" və sair bu kimi adlar altında aparılan psixtron təbliğatlar gənclərin psixologiyasını, şüurunu dəyişib, həyata baxışlarını dəyişib. Artıq ailəyə müqəddəs ocaq kimi yanaşılmır, tez-tez boşanıb başqası ilə yaşamaq normal qəbul olunur, qadınların və kişilərin xəyanət halları adiləşib, ailədə qarşılıqlı sevgi və fədakarlıq azalıb. Bunu ailə adalandırmaq olmaz, bu sadəcə müvəqqəti birgəyaşayışdır. Ailə tamam başqa şeydir və müqəddəs bir ocaqdır. Gənclərə bunu yox, ailə dəyərlərimizin əleyhinə təbliğat aparan qüvvələr bu günkü vəziyyətin yaranmasına səbəb olublar.

Ona görə də, milli-mənəvi dəyərlərin qorunması və mənəvi deqradasiyanın qarşısının alınması bu gün son dərəcə vacibdir. Müasirlik adı altında gənclərə yönəlmiş mənfi təbliğatlara son qoyulmalıdır. Bundan başqa, ailərə sosial dəstək proqramları tətbiq olunmalıdır. Çoxuşaqlılıq təbliğ edilməli, belə ailələrə xüsusi yardımlar edilməlidir. Uşaqpulunun verilməsi də bura daxildir. Bəzi ölkələrdə, (məsələn elə qonşu Rusiyada) 20 ildən artıq mövcud olan ailələrə ciddi məbləğdə xüsusi dövlət yardımı edilir ki, bu da boşanmaların azaldılması stimullaşdırıcı vasitələrdən biridir.

Evlənmələrin artırılması üçün yeni qurulan ailələrə güzəştli və uzunmüddətli şərtlərlə mənzil almaları təmin olunmalıdır. Gənclərin məşğulluq məsələsi, normal bir ailəyə yetəcək qədər gəlir əldə edə bilməsi imkanları artırılmalıdır.

Sosial-iqtisadi və mənəvi istiqamətlərdə ciddi tədbirlər görülməsə, yaxın onilliklərdə sürətli əhali azalması və qocalması qaçılmazdır. Gənclərin sayı azalacaq, iqtisadi aktivlik aşağı düşəcək, dövlətin sosial yükü artacaq. 20-30 il sonra yaranacaq acınacaqlı vəziyyətin qarşısını almaq istəyiriksə, fəaliyyətə bu gündən başlamalıyıq.



Sosial dəstək proqramları həyata keçirilməli və çoxuşaqlılıq, ailə dəyərləri təbliğ olunmalıdır. Boşanmalar çətinləşdirilməli, ailələrin möhkəmliyi təmin edilməlidir. Əks halda yaxın gələcəkdə ölkə çox ciddi demoqrafik və sosial problemlərlə üzləşəcəyik.

**Elçin Bayramlı**

SƏS
21 oktyabr
2025-ci il

# Xəstə heyvanın ətini necə seçmək olar?



*EKSPERT AÇIQLADI*

Son günlərdə Azərbaycanın şimal bölgələrində dabaq xəstəliyi səbəbindən heyvan əti ilə bağlı ciddi narahatlıqlar yaranıb. Ümumiyyətlə xəstə heyvanın ətini necə seçmək mümkündür? Əti qaynatmaqla xəstəlikdən tam qorunmuş oluruq?

Məsələ ilə bağlı qida mütəxəssisi Asim Vəliyev SİA-ya açıqlamasında bildirib ki, dabaq virus mənşəli xəstəlikdir: "Xəstəlik əsasən heyvanlar arasında sürətlə yayılır. İnsanlara yoluxması az hallarda olsa da mümkündür. Xəstə heyvanın əti insan üçün birbaşa virus mənbəyi olmasa da, heyvan sağlamlığı və qida təhlükəsizliyi baxımından riskləri nəzərə almaq vacibdir. Xəstə heyvanlar yeməkdən imtina edə, hərəkətsizləşə, çəki itirə bilər, ayaq-damarlarda problemlər yarana bilər. Sağlam heyvan ətində normal rəng olmalıdır. Sağlam qoyun, keçi, mal ətində rəng çəhrayı-qırmızı tonlarında olur. Keyfiyyətli ətin qoxusu kəskin, xoşagəlməz olmamalıdır. Həmçinin ət baytarlıq nəzarətindən və yoxlamasından keçməlidir. Əgər heyvan kəsimdən əvvəl baytar nəzarətindən keçməyibsə, risk artır. Amma nəzərə almaq lazımdır ki, yalnız gözlə görünən normal, anormal fərqlərlə heyvanın tam sağlam olduğunu, ya da hansısa xəstəliyə tutulmuş olduğunu müəyyənləşdirmək mümkün deyil. Bunun üçün laboratoriya müayinəsi mütləqdir.

Əti qaynatmaq bəzi mikrobioloji, viral təhlükələri azalda bilər. Amma heyvanın xəstə olub-olmaması məsələsini yalnız qaynatmaqla tam aradan qaldırmaq mümkün deyil. Əti düzgün şəkildə yüksək temperaturda bişirmək bakteriyalar, viruslar üçün təhlükəni azalda bilər. Amma bu hal xəstə heyvanın ətini almaq və istifadə etmək tamamilə risksizdir demə deyil. Heyvanın əti xəstəliyə görə əlavə toksinlər, zəhərlənmələr, heyvanın zəifləməsi nəticəsində yaranmış bakteriyalar ehtiva edə bilər. Kəsim, doğrama, saxlanma zamanı gigiyena qaydalarına riayət edilmədikdə təhlükə arta bilər. Bir istehlakçı olaraq ət alarkən bəzi qaydalara əməl etməliyik. Heyvan alarkən baytar nəzarətindən keçmiş ət almağa üstünlük verməliyik. Kəsim üçün heyvanın sağlamlığı, görünüşü yoxlanmalıdır. Hərəkət qabiliyyəti, yemək yeməsi, çəkisi, ayaqlarda yara və ya limfa düyünlərində şişkinlik olmamasına diqqət etməliyik. Əti düzgün şəkildə saxlamalıyıq. Çiy ət soyuducuda müvafiq temperaturda saxlanmalıdır. Həmçinin əti hazırlayarkən əsasən 70 dərəcə üzəti yüksək temperaturda bişirmək lazımdır. Yoluxma halı qeydə alınmış rayonlardan ət alarkən diqqətli olmalıyıq".

*Arzu Qurbanlı*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Abramoviç indi də gözünü "Qalatasaray"a dikib...




Rus biznesmen Roman Abramoviç İstanbul "Qalatasaray"ının böyük səhmdarlarından biri olmağı düşünür. QOL.az xəbər verir ki, bu barədə Türkiyənin "Sözcü" onlayn nəşri xəbər verib. Bildirilir ki, o, klubun səhmlərini almaq niyyətindədir. Abramoviç 2003-2022-ci illərdə Londonun "Çelsi" futbol klubunun sahibi olub. Məlumata görə, o, artıq Boğazda bir malikanə alıb və İstanbulda yaşamağa hazırlaşır.

# Bu ərazilərə qar yağacaq - XƏBƏRDARLIQ

***Oktyabrın 22-də gözlənilən hava şəraiti açıqlanıb. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 21-dən 22-nə keçən gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi səhər cənub-şərq küləyi ilə əvəz olunacaq.***



Havanın temperaturu gecə 13-15, gündüz 17-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 766 mm civə sütunu, nisbi rütubət isə 70-80 % təşkil edəcək. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı gözlənilir.

## TƏBRİK EDİRİK!





Şabran şəhər R.Yusifov adına 2 saylı tam orta məktəb -liseyin müəllimi Elnarə Mahmudovanı ad günü və yubileyi münasibətilə məktəb rəhbərliyi, müəllim yoldaşları, doğmaları ürəkdən təbrik edir, onacan sağlığı, uzun ömür və səadət dolu günlər arzu edirlər.

*Körpə ürəklərdə günəş tək yanan,*
*Çətin sınaqlarda məğrur dayanan,*
*İstəyi, arzusu çağlayan umman,*
*Həyatın ən uca sözüdür Müəllim!!!*

## ELAN

Əsədov İlham Əsəd oğluna 11.11.2009-cu ildə verilən Yeni Azərbaycan Partiyasının vəsiqəsi itdiyinə görə etibarsız sayılsın.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**